**AZƏRBAYCAN RESPUBLİKASI**

**ALİ MƏHKƏMƏSİNİN**

**KOMMERSİYA KOLLEGİYASI**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 2020-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T

# M Ü N D Ə R İ C A T


**ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASI.....................................** **3**

2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən görülmüş işlərə dair məlumat...................................... **3**

Apellyasiya məhkəmələrinin icraatında olan Kommersiya mübahisələrinə dair işlərin hesabatı............................................................ 65

Ölkə üzrə birinci instansiya məhkəmələrinin fəaliyyətinə dair hesabat............. 82

**ƏLAVƏLƏR.........................................................................................** **110**

# ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASI

## 1.1. 2020-Cİ İLDƏ AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR MƏLUMAT

1. Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən 2020-ci ilin avqust ayında "Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair (kommesiya işləri üzrə) sorğu" hazırlanaraq, məhkəmənin "Elektron məhkəmə məsələləri və informasiya texnologiyaları şöbəsi"nə təqdim edilmişdir. 2021-ci ildən etibarən həmin sorğunun ilk öncə Ali Məhkəmənin Kommersiya Kollegiyasının fəaliyyətində, daha sonra isə kommersiya məhkəmələrinin və apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarının fəaliyyətində tətbiqi nəzərdə tutulur. Bununla bağlı "Elektron məhkəmə" informasiya sistemində sözügedən sorğunun tətbiqi məqsədi ilə müvafiq təşkilati işlər görülür, 2021-ci ilin mart ayınadək yekunlaşması gözlənilir.

2. 2020-ci il 18 sentyabr tarixində Ali Məhkəmənin Plenumunda "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında" Qərar qəbul edilmiş, bununla da, məhkəmə aidiyyəti ilə bağlı həm məhkəmələr arasındakı fikir ayrılıqlarına aydınlıq gətirilmiş, həm də bu qəbildən olan şikayətlərin sayı xeyli azalmışdır. Ali Məhkəmənin Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair qərar qəbul edilmişdir. Həmin qərarın icrası qaydasında ilk dəfə Mülki Kollegiya ilə birgə "Mülki və kommersiya işləri üzrə Anket" hazırlaranaq, monitorinqinin aparılmasının nəzərdə tutulduğu məhkəmələrə göndərilmiş, həmin anketin kassasiya instansiyası məhkəməsinə aid hissəsi isə müvafiq kollegiyalara təqdim edilmişdir. Hazırda həmin anketlər üzrə məlumatlar həm məhkəmənin "Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi"ndə, həm də kommersiya və mülki kollegiyalarında toplanılır (Əlavə 1).

3. 2020-ci ilin birinci yarısında məhkəmələrdə kommersiya mübahisələrinə baxılması vəziyyətinə dair ətraflı hesabat hazırlanmışdır. Həmin hesabatda bütün məhkəmə instansiyaları üzrə kommersiya məhkəmələrinin iş yükü, baxdığı mübahisələrin kateqoriyası, məhkəmə aktlarının sabitliyi ilə bağlı məsələlər ətraflı təhlil olunmuşdur. Belə hesabat illik hazırlanmış və ölkə üzrə bütün kommersiya məhkəmələrinə və apellyasiya instansiyası məhkəmələrinə göndərilməsi planlaşdırılır.

4. Ali Məhkəmənin qərarları təhlil edilərək, qanunvericiliyin tələbləri, beynəlxalq təcrübə, habelə qərarların çatımlılığı ilə bağlı ictimai tələbat nəzərə alınmaqla, yeni qərar nümunəsi layihəsi, habelə bu yeni qərarların forma və məzmununa dair tələbləri əks etdirən müvafiq təlimat hazırlanmışdır. 2020-ci ilin sentyabr ayından etibarən Kommersiya Kollegiyasının hakimləri tərəfindən çıxarılan qərarlar artıq həmin yeni formada tərtib edilir.

5. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət edilərək iki məsələ üzrə Mülki və Kommersiya Kollegiyalarının Qərardadı qəbul edilmişdir – 1) "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi üzrə ipoteka predmeti olan əmlakın ilkin satış qiymətinin müəyyən edilməsi məsələsinə dair **20 iyul 2020-ci il** tarixli qərardad və 2) Apellyasiya və kassasiya şikayətlərinin mümkünlüyü və şikayətlərə

baxılmasının hədləri ilə bağlı Mülki Prosessual Məcəllənin tətbiqi məsələlərinə dair 14 oktyabr 2020-ci il tarixli qərardad.

Həmçinin qeyd edilməlidir ki, cari ildə Kommersiya Kollegiyası tərəfindən lizinq mübahisələri üzrə baxılmış işlər təhlil edilərək, bu növdən olan mübahisələr üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmini məqsədilə, Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət edilmişdir. Lakin Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə əlaqədar məhkəmənin iş rejimində məhdudiyyətlərin tətbiqi səbəbindən, mübahisəli hüquqi məsələ üzrə mülki və kommersiya kollegiyalarının birgə iclasının keçirilməsi növbəti ilə keçirilmişdir.

6. Konstitusiya Məhkəməsinin icraatında olan “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 319.3-cü maddəsinin və digər əlaqəli qanunvericilik aktlarının şərh olunmasına dair” iş üzrə yazılı mülahizə verilmişdir.

7. Azərbaycan Respublikasının 28 dekabr 2018-ci il tarixli 1436-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə 10-1-ci maddə əlavə edilmiş, kommersiya mübahisələri üzrə məhkəmə icraatının, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılmasının “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilməsinin məcburiliyi təsbit edilmişdir. Həmin normanın məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə göndərilmiş işlər üzrə tətbiqi təcrübəsi təhlil edilmiş və məhkəmələrə 2020-ci il 3 sentyabr tarixində müvafiq icmal məktub ünvanlanmışdır. Həmin məktubda kommersiya mübahisələri üzrə elektron icraatın aparılmasının təmini məqsədi ilə lazımi zəruri izahlar verilmişdir.

8. 2020-ci ilin avqustunda səlahiyyət müddəti bitən və fəaliyyətlərinin dövri qiymətləndirilməsi nəzərdə tutulan birinci, apellyasiya və kasassiya instansiyası məhkəmələrinin hakimlərinin fəaliyyətlərinin qiymətləndirilməsinə dair Rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

9. Ali Məhkəmənin Kommersiya Kollegiyasında baxılan konkret işlərin məhkəmə tərkiblərində, daha sonra isə Kollegiyada öyrənilməsi və müzakirəsi işi daha da təkmilləşdirilmişdir. İşlər əvvəlcə məhkəmə tərkiblərində hakimlərin öz aralarında, daha sonra isə Kollegiyada ətraflı müzakirə edilir.

10. Məhkəmənin digər Kollegiyalarında olduğu kimi, Kommersiya Kollegiyasında da apellyasiya məhkəməsinin ləğv edilmiş bütün qərarlarının xüsusi meyarlar üzrə öyrənilməsi işinə başlanılmışdır.

11.Kassasiya şikayətlərinin mülki prosessual qanunvericiliyin tələblərinə uyğun tərtib edilməsinin təmini məqsədilə, kommersiya mübahisələri üzrə kassasiya şikayətinin nümunəvi forması hazırlanmışdır (Əlavə 2).

### 1.2. 2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olmuş işlər və onların 2019-cu illə müqayisəli təhlili

2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında 430 işdən 49 iş (11,4%) 2019-cu ildən qalıq keçmiş, 381 iş (88,6%) isə 2020-ci ildə daxil olmuşdur. 2019-cu ilin müvafiq hesabat dövründə isə icraatda 589 işdən 60 iş (10,2%) 2018-ci ildən qalıq keçmiş, 529 iş (89,8%) isə 2019-cu ildə daxil olmuşdur.







2020-ci ildə kommersiya kollegiyasının icraatında olan 430 iş 2019-cu ilin müvafiq dövründə icraatda olan 589 iş ilə müqayisə edildikdə görünür ki, 2020-ci ildə icraatda olan 159 (27%) iş azalmışdır.

2020-ci ildə daxil olan 381 işi 2019-cu ilin müvafiq dövründə daxil olan 529 işlə müqayisə etdikdə görünür ki, 2020-ci ilin hesabat dövründə daxil olan işlərin sayında 148 işin (28%) azalması müşahidə olunur.

2019 və 2020-ci illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, 2020-ci ilə qalıq keçən işlər 11 iş (18,3%) azalmışdır.




2020-ci ildə icraatda olmuş 430 işdən 263 (61,2%) işə mahiyyəti üzrə baxılmış, 29 (6,7%) iş Azərbaycan Respublikası MPM-nin 408-ci maddəsinə əsasən baxılmadan geri qaytarılmış,

57 (12,56%) iş məhkəmə aidiyyəti ilə bağlı olmuş, 83 (19,3%) iş 2021-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 23 aprel tarixli Qərarına əsasən məhkəmələrin icraatında olan işlərə baxılmasının müvəqqəti olaraq təxirə salınması ilə əlaqədar olaraq növbəti ilə qalıq keçən işlərin sayında artım olmuşdur.



2019-cu ildə icraatda olmuş 589 işdən 500 (84,9 %) işə mahiyyəti üzrə baxılmış, 40 (6,8 %) iş Azərbaycan Respublikası MPM-nin 408-ci maddəsinə əsasən baxılmadan geri qaytarılmış, 49 (8,3 %) iş 2020-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




2020-ci ildə mahiyyəti üzrə baxılmış 263 işdən 174 iş üzrə (66,5%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 85 iş üzrə (32,3 %) məhkəmə aktı ləğv edilmiş, 4 iş üzrə (1,5%) məhkəmə aktı dəyişdirilmişdir.



2019-cu ildə mahiyyəti üzrə baxılmış 500 işdən 366 iş üzrə (73,2 %) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 128 iş üzrə (25,6 %) məhkəmə aktı ləğv edilmiş, 4 iş üzrə (0,8 %) məhkəmə aktı isə dəyişdirilmişdir.



## 1.3. 2020-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **3** | **1,14%** |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **2** | **0,76%** |
| Torpaq mübahisələri | **6** | **2,28%** |
| Vergi mübahisələri | **11** | **4,18%** |
| Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması | **11** | **4,18%** |
| Alqı-satqı müqaviləsi | **21** | **7,98%** |
| İcarə müqaviləsi | **8** | **3,04%** |
| Borc müqaviləsi | **22** | **8,37%** |
| Kredit müqaviləsi | **30** | **11,41%** |
| Daşıma müqaviləsi | **1** | **0,38%** |
| Sığorta müqaviləsi | **7** | **2,66%** |
| Bank əmanəti və bank hesabatı müqavilələri üzrə | **2** | **0,76%** |
| Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar; qiymətli kağızlar üzrə öhdəliklər ilə bağlı mübahisələr | **1** | **0,38%** |
| Sair müqavilədən irəli gələn öhdəliklər üzrə mübahisələr | **92** | **34,98%** |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | **1** | **0,38%** |
| Digər mübahisələr | **45** | **17,11%** |
| Cəmi | **263** | **100%** |

## 1.4. 2020-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN SUBYEKT TƏRKİBİ ÜZRƏ BÖLGÜSÜ

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar (hər iki tərəfi) | 9 |
| Kommersiya hüquqi şəxs (hər iki tərəf) | 105 |
| Qarışıq tərkib də, yəni tərəfləri fərdi sahibkar, kommersiya hüquqi şəxs olan işlər üzrə | 54 |
| Qeyri-kommersiya hüquqi şəxs<br>*sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər | 9 |
| Publik hüquqi şəxs | 3 |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | 16 |
| Hüquqi şəxsin ləğvedicisi | 41 |
| Bələdiyyə | 4 |
| Dövlət orqanı | 39 |
| Təbii inhisar subyektləri | 79 |

Qeyd. Subyekt tərkibinin təhlili işlərin sayı ilə deyil, həmin işlərdə tərəf olan proses iştirakçılarına əsasən aparılmaqla təhlilin daha konkret olmasına diqqət yetirilmişdir. Məsələn, subyekt tərkibi xarici hüquqi şəxs olan işlərdə əgər hər iki tərəf kommersiya hüquqi şəxsdirsə, həm “xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları” qrupuna, həm də “kommersiya hüquqi şəxs” qrupuna daxil edilməklə subyek tərkibinin dəqiq bölgüsü aparılmışdır.

## 1.5. 2020-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN İDDİA QİYMƏTİNƏ GÖRƏ BÖLGÜSÜ

2020-ci ildə daxil olmuş işlərdən 137 işin iddia qiyməti 10 min manat ilə 100 min manat arasında, 71 işin iddia qiyməti 100 min manat ilə 1 milyon manat arasında, 26 işin iddia qiyməti 1 milyon manat ilə 100 milyon manat arasında olmuşdur. 29 iş üzrə iddianın qiyməti Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 112-ci maddəsinə əsasən müəyyən edilərək, həmin Məcəllənin 404-1-ci maddəsi ilə kassasiya qaydasında baxılması mümkün hesab edilmişdir.

| **İşlərin iddia qiymətinə görə bölgüsü**<br>***iddia qiyməti AZN ilə göstərilmişdir.** | **SAYI** |
|---|---|
| 10.000-100.000 | 137 |
| 100.000-1.000.000 | 71 |
| 1.000.000-100.000.000 | 26 |
| İddianın qiyməti MPM-in 112-ci maddəsinə əsasən müəyyənləşdirilən tələblər | 29 |
| Cəmi | 263 |

## 1.6. LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARINA DAİR HESABAT

2020-ci ildə ləğv edilmiş 85 məhkəmə aktından 70-i (82,35 %) yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə göndərilmiş, 4 (4,71 %) iş üzrə yeni qərar qəbul edilmiş, 11 (12,94 %) iş üzrə icraata xitam verilmişdir.




2019-cu ildə ləğv edilmiş 128 məhkəmə aktından 106-sı (82,81 %) yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə göndərilmiş, 5 (3,91 %) iş üzrə yeni qərar qəbul edilmiş, 17 (13,28 %) iş üzrə isə icraata xitam verilmişdir.




2020-ci ildə baxılmış işlərdən 31,9 % qətnamə və ya qərardad ləğv edilmişdir, 2019-cu ilin müvafiq dövründə isə 25,6% qətnamə və ya qərardad ləğv edilmişdir ki, bu da 2020-ci ilin cari hesabat dövründə 6,3% qətnamə və ya qərardadların ləğvinin artmasını göstərir.

2020-ci ildə baxılan 263 işdən 16 (6%) iş qərardad ilə əlaqədar olmuşdur. 2019-cu ilin müvafiq dövründə isə baxılan 500 işdən 163 (32,6%) iş qərardad ilə əlaqədar olmuşdur ki, bu da 2020-ci ildə qərardadlarda 147 (90,2%) işin azalmasını göstərir.



## 2020-Cİ İLDƏ LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARININ DAXİL OLDUĞU APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ

**(CƏMİ 85 İŞ)**



## 2020-Cİ İLDƏ LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARININ İDDİALARIN KATEQORİYALARI ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Alqı-satqı müqaviləsi | 3 | 3,53 % |
| Kredit müqaviləsi | 15 | 17,65 % |
| İcarə müqaviləsi | 6 | 7,06 % |
| Borcun ödənilməsi və borcun silinməsi tələbi | 12 | 14,12 % |
| Lizinq müqaviləsi | 4 | 4,71 % |
| Sığorta müqaviləsi | 3 | 3,53 % |
| Malgöndərmə müqaviləsi, yükdaşıma xidməti və malların dəyərinin ödənilməsi | 4 | 4,71 % |
| Pul tələbi (borcun tutulması) | 4 | 4,71 % |
| Müəlliflik hüququ və əmtəə nişanından qanunsuz istifadə nəticəsində dəymiş ziyanın ödənilməsi | 2 | 2,35 % |
| Kompensasiyanın, zərərin(ziyanın), əldən çıxmış faydanın ödənilməsi | 8 | 9,41 % |
| İflas | 2 | 2,35 % |
| Əmlakın qiymətləndirilməsinin ləğvi və ya etibarsız hesab edilməsi, əmlakın yenidən qiymətləndirilməsi | 2 | 2,35 % |
| Mühafizə zonası | 4 | 4,71 % |
| Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi ilə bağlı mübahisələr | 1 | 1,18 % |
| Sənədlərin götürülməsi | 1 | 1,18 % |
| Digər | 14 | 16,47 % |
| Cəmi | 85 | 100% |
| | | |
| | | |

## 2020-Cİ İLDƏ LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARININ SUBYEKT TƏRKİBİ VƏ ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar (tərəflərdən biri və ya hər ikisi) | 21 |
| Kommersiya hüquqi şəxs (tərəflərdən biri və ya hər ikisi) | 69 |
| Qeyri-kommersiya hüquqi şəxs<br>*sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər | 3 |
| Publik hüquqi şəxs | 2 |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | 12 |
| Hüquqi şəxsin ləğvedicisi | 10 |
| Bələdiyyə | 3 |
| Dövlət orqanı | 15 |
| Təbii inhisar subyektləri | 17 |

2020-ci ildə ləğv edilmiş məhkəmə aktları üzrə 12 işdə subyekt tərkibi “tərəfləri xarici hüquqi şəxslər və ya onun nümayəndəlik və filialları” olmuşdur. Həmin ölkələrə aiddir: Türkiyə Respublikası, Yaponiya, Cənubi Koreya, İtaliya, Böyük Britaniya, Panama, Almaniya Federativ Respublikası.



## 1.7. 2020-Cİ İLDƏ 2-Cİ VƏ 3-CÜ DƏFƏ AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASINA DAXİL OLMUŞ İŞLƏRƏ DAİR HESABAT

2020-ci ildə icraatda olmuş 430 işdən 87 (20,23 %) iş 2-ci və ya 3-cü dəfə Ali Məhkəməyə daxil olmuşdur. Həmin işlərdən 52 (59,77 %) işə mahiyyəti üzrə baxılmış, 6 iş (6,9 %) üzrə kassasiya şikayəti mümkün sayılmamış, 29 (33,33 %) iş qalıq olaraq növbəti dövrə keçmişdir.




2020-ci ildə təkrar kassasiya qaydasında mahiyyəti üzrə baxılmış 52 işdən 28 (53,85 %) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 23 (44,23 %) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (1,92 %) iş üzrə isə məhkəmə aktı dəyişdirilmişdir.



## 1.8. XARİCİ MƏHKƏMƏLƏRİN VƏ ARBİTRAJLARIN QƏTNAMƏLƏRİNİN İCRASI VƏ TANINMASINA DAİR

2020-ci ildə kommersiya kollegiyasının icraatında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı 18 iş olmuşdur. Həmin işlərdən 3-ü (16,7 %) 2019-cu ildən qalıq keçmiş, 15-i (83,3%) isə hesabat dövründə daxil olmuşdur.



Xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınmasına dair icraatda olmuş 18 işdən 11-nə (61,1%) baxılmış, 7-si (38,9%) isə 2021-ci ilə qalıq keçmişdir.




2020-ci ildə baxılmış 11 işdən 7 iş üzrə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 4 iş üzrə rədd edilmişdir.



## ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASINDA 2010-2020-Cİ İLLƏR ƏRZİNDƏ XARİCİ DÖVLƏTLƏRİN MƏHKƏMƏLƏRİ VƏ ARBİTRAJLARININ QƏTNAMƏLƏRİNƏ BAXILMASI BARƏDƏ






## XARİCİ DÖVLƏTLƏRİN MƏHKƏMƏ VƏ ARBİTRAJLARININ QƏTNAMƏLƏRİNİN İCRASI VƏ TANINMASI İLƏ NƏTİCƏLƏNMƏYƏN İŞLƏR




## BAXILMADAN GERİ QAYTARILMIŞ MÜRACİƏTLƏR




## NÖVBƏTİ İLƏ QALIQ KEÇƏN İŞLƏR



## 1.9. AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASINDA 2020-Cİ İLDƏ İCRAATDA OLAN, DAXİL OLAN, BAXILMIŞ İŞLƏR VƏ MÜRACİƏTLƏR BARƏDƏ HESABAT

**(2019-cu illə müqayisədə)**










Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə icraatda olmuş işlər üzrə 159 müraciət (27%), daxil olmuş işlərdə 148 müraciət (28%), baxılmış işlərdə isə 237 müraciət (47,4%) sayı az olmuşdur.

## 1.10. 2020-Cİ iLDƏ TƏQDİM EDİLMİŞ MÜRACİƏTLƏR VƏ VƏTƏNDAŞLARIN QƏBULU BARƏDƏ

2020-ci ildə kommersiya kollegiyasının icraatında olan işlər üzrə 97 prosessual müraciət (kassasiya şikayəti, kassasiya şikayətinə əlavə, etiraz və s.) həmin işlərə əlavə edilməsi üçün kollegiyanın katibliyinə təqdim edilmişdir.

Kommersiya işləri üzrə il ərzində 17 əlavə kassasiya şikayəti və 1 məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması barədə ərizə daxil olmuşdur. Həmin müraciətlərdən 2021-ci ilə qalıq keçməmişdir.

2020-ci ildə kommersiya kollegiyasının sədri tərəfindən bir nəfər vətəndaş qəbul olunmuşdur.

Beləliklə, Azərbaycan Respublikasının Plenumunda baxılması üçün cəmi 18 müraciət daxil olmuşdur. Məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması barədə ərizə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəllənin 432.2-ci, əlavə kassasiya şikayətləri isə həmin Məcəllənin 424-cü maddəsinin tələblərinə cavab vermədiklərinə görə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun baxışına çıxarılmasından imtina edilmişdir.

## 1.11. 2020-Cİ İLDƏ AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNDƏ BAXILMIŞ KOMMERSİYA MÜBAHİSƏLƏRİNƏ DAİR HESABAT

2020-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsində baxılaraq yekun qərar qəbul edilmiş kommersiya mübahisəsi olmamışdır.






## 1.12. AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASINDA 2015-2020-Cİ İLLƏR ƏRZİNDƏ İCRAATDA OLAN İŞLƏR BARƏDƏ HESABAT







CƏMİ BAXILMIŞ İŞLƏR ÜZRƏ
2015
13%
2016
19%
2017
20%
2018
18%
2019
20%
2020
10%


Kassasiya qaydasında dəyişdirilmədən saxlanılmış məhkəmə aktları üzrə
400
350
300
250
200
150
100
50
0
228
360
347
315
366
175
2015
2016
2017
2018
2019
2020


Kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktları üzrə
180
160
140
120
100
80
60
40
20
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
110
123
150
140
128
85


Kassasiya qaydasında dəyişdirilmiş məhkəmə aktları üzrə
7
6
5
4
3
2
1
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
4
4
6
4
4
4

## 1.13. 2020-Cİ İLDƏ ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASINDA MƏHKƏMƏ AİDİYYƏTİNƏ DAİR BAXILMIŞ İŞLƏR ÜZRƏ HESABAT

2020-ci ildə kommersiya kollegiyasına daxil olan hakimlərin sədrliyi və məruzəsi ilə qarışıq tərkibdə cəmi 57 məhkəmə aidiyyətinə dair işə baxılmışdır. Məhkəmələrarası fikir ayrılığı səbəbindən 47 (82,46%), tərəflərin şikayəti əsasında isə 10 (17,54%) məhkəmə aidiyyəti işinə baxılmışdır.

Həmin işlərdən 37 işdə Ali Məhkəmənin kommersiya, mülki, inzibati kollegiyalarına daxil olan hakimlərin qarışıq tərkibinin gəldiyi nəticələr işi göndərən kommersiya məhkəmələrinin gəldiyi nəticələr ilə üst-üstə düşmüş, 17 işdə qarışıq tərkib fərqli nəticəyə gəlmiş, 1 işdə yalnız iddia tələblərinin bir hissəsinə münasibətdə razılaşılmış, 2 iş isə məhkəmə aidiyyətinə dair mübahisə üzrə şikayətin Azərbaycan Respublikası MPM-in 403-1.3, 407-408.2.3-cü maddələrinin tələblərinə uyğunluğunun yenidən yoxlanılması üçün kommersiya işi ilə birlikdə kommersiya məhkəmələrinə qaytarılmışdır.






**2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatına daxil olmuş məhkəmə aidiyyətinə dair işlərin apellyasiya məhkəmələri üzrə statistikası**




Qeyd olunmalıdır ki, 2020-ci il 18 sentyabr tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Qərarı qəbul olunmuşdur. Kommersiya kollegiyasının icraatına Plenum qərarı qəbul edilənədək 44, həmin tarixdən sonra kollegiyaya 13 iş daxil olmuşdur.

# 1.14. APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİNDƏN DAXİL OLMUŞ İŞLƏRƏ BAXILMASININ MÜQAYİSƏLİ TƏHLİLİ




- 2020-ci ildə 56 iş birinci instansiya məhkəmələrindən daxil olmuşdur.

## *1.15. 2020-ci İldə Məhkəmə Aktlarından Verilmiş Kassasiya Şikayətlərinə Baxılması Vəziyyətinin Apellyasiya İnstansiyası Məhkəmələri üzrə təhlili*

### 1.15.1. BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə ümumən icraatda olmuş 430 işin 255-i (59,3%) Bakı Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 184 (72,16%) işə 2020-ci ildə baxılmış, 54 (21,18%) iş növbəti dövrə qalıq keçmiş, 17 (6,67%) kassasiya şikayəti isə geri qaytarılmışdır.



Baxılmış 184 işdən 130 (70,65%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 54 (28,8%) iş üzrə məhkəmə aktları ləğv edilmiş, 1 (0,54%) iş üzrə məhkəmə aktı dəyişdirilmişdir.



## 2020-ci ildə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasından daxil olan ləğv edilmiş işlərin kateqoriyalar üzrə bölgüsü

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında ləğv edilmiş məhkəmə aktlarını iddiaların kateqoriyaları üzrə təhlil etdikdə görünür ki, 1 iş gömrük borcunun tutulması, 1 iş tikilinin bərpası, 1 iş xidməti müqavilə, 1 iş müəlliflik hüququ, 1 iş borc tələbi, 1 iş səyyar vergi yoxlamasının aparılması üçün sənədlərin götürülməsi, 1 iş saxlanc xidmətinə görə yaranmış borcun ödənilməsi tələbi üzrə cavabdehin verdiyi işə məhkəmədə baxıla bilməməsi əsası ilə icraata xitam verilməsi, 1 iş tv kanallarının yayımının dayandırılması və maddi zərərin ödənilməsi, 1 iş arabağlantı müqaviləsindən irəli gələn borcun ödənilməsi, 1 iş müqavilənin ləğv edilməsi və ödənilmiş məbləğin geri qaytarılması, 1 iş avtomobillərə texniki xidmət və təmiri haqqında, 1 iş texnikaların satın alınması, 1 iş ipoteka predmeti olan əmlakın qiymətləndirilməsinin ləğvi və əmlakın yenidən qiymətləndirilməsi, 1 iş qiymətləndiricinin hesabatının etibarsız hesab edilməsi, 2 iş pul tələbi, 2 iş malgöndərmə (yükdaşıma xidmətləri), 2 iş alqı-satqı, 2 iş icarə müqaviləsi, 2 iş mühafizə zonası, 2 iş lizinq müqaviləsi, 3 iş sığorta müqaviləsi, 3 iş malların dəyərinin ödənilməsi, 6 iş borcun silinməsi (borcun ödənilməsi), 7 iş zərərin (ziyanın) ödənilməsi və kompensasiya tələbi, 11 iş isə kredit müqaviləsi ilə bağlı olmuşdur.

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Kredit müqaviləsi | 11 | 20,75% |
| Alqı-satqı müqaviləsi | 2 | 3,77% |
| Sığorta müqaviləsi | 3 | 5,66% |
| İcarə müqaviləsi | 2 | 3,77% |
| Lizinq müqaviləsi | 2 | 3,77% |
| Malgöndərmə müqaviləsi / yükdaşıma xidməti | 2 | 3,77% |
| Zərərin (ziyanın) ödənilməsi / kompensasiya | 7 | 13,2% |
| Borcun silinməsi / ödənilməsi | 6 | 11,32% |
| Malların dəyərinin ödənilməsi | 3 | 5,66% |
| Gömrük borcunun tutulması | 1 | 1,87% |
| Tikilinin bərpası | 1 | 1,87% |
| Xidməti müqavilə | 1 | 1,87% |

| | | |
|---|---|---|
| Müəlliflik hüququ | 1 | 1,87% |
| Borc tələbi | 1 | 1,87% |
| Mühafizə zonası ilə bağlı | 1 | 1,87% |
| Səyyar vergi yoxlanılmasının aparılması üçün sənədlərin götürülməsi | 1 | 1,87% |
| Arabağlantı müqaviləsindən irəli gələn borcun ödənilməsi | 1 | 1,87% |
| İpoteka predmeti olan əmlakın qiymətləndirilməsinin ləğvi və əmlakın yenidən qiymətləndirilməsi / qiymətləndiricinin hesabatının etibarsız hesab edilməsi və s. | 2 | 3,77% |
| Digər | 6 | 11,32% |
| Cəmi | 54 | 100% |

**Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktlarının nəticələri üzrə hesabatı**

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 255 işdən 184 işə baxılmışdır. Baxılmış işlərdən 54-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 45 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 9 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmişdir: 7 işdə icraata xitam verilmiş, 1 işdə qərardad ləğv edilərək, mahiyyəti üzrə baxılması üçün göndərilmiş, 1 işdə isə qətnamə qismən ləğv edilərək həmin hissədə iddia təmin edilmişdir.






**2019-2020-ci illər ərzində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barəsində hesabat (müqayisəli şəkildə)**












Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərdə 176 iş (48,9%) azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərdə 136 iş (51,1%), ləğv edilmiş işlərdə 34 iş (39,8%), dəyişdirilmiş işlər üzrə isə 3 iş (75%) azalma olmuşdur.




Qeyd olunan məhkəmə aktlarının 41,51%-nin ləğv edilməsinin səbəbi prosessual hüquq normalarının pozulması, 26,42%-nin maddi hüquq normalarının pozulması, 33,96%-nin isə həm maddi, həm də prosessual hüquq normalarının pozulması olmuşdur.

## 1.15.2. GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə daxil olmuş 430 işdən 32-si (7,5%) Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 26 (81,25%) işə 2020-ci ildə baxılmış, 5 (15,63%) iş növbəti dövrə qalıq keçmiş, 1 (3,13%) iş üzrə kassasiya şikayəti isə geri qaytarılmışdır.



Baxılmış işlər üzrə 16 (67%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 10 (33%) məhkəmə aktı isə ləğv edilmişdir.



## 2020-ci ildə Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasından daxil olan ləğv edilmiş məhkəmə aktlarının kateqoriyalar üzrə bölgüsü

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında ləğv edilmiş məhkəmə aktlarını iddiaların kateqoriyaları üzrə təhlil etdikdə görünür ki, 1 iş mühafizə zonası, 1 iş sənədlərin götürülməsi, 1 iş tikilinin sökülməsi, 1 iş kredit müqaviləsi, 1 iş əldən çıxmış fayda, 1 iş borcun ödənilməsi, 1 iş iflas, 1 iş icarə müqaviləsi (qətnamənin icra edilməməsi nəticəsində yaranmış borcun tələbi), 2 iş lizinq müqaviləsi ilə bağlı olmuşdur.

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Kredit müqaviləsi | 1 | 10% |
| Əldən çıxmış faydanın tələb edilməsi | 1 | 10% |
| Tikilinin sökülməsi və s. | 1 | 10% |
| Borc tələbi | 2 | 20% |
| Lizinq müqaviləsi | 2 | 20% |
| Mühafizə zonası | 1 | 10% |
| Sənədlərin götürülməsi | 1 | 10% |
| İflas | 1 | 10% |
| Cəmi | 10 | 100% |

**Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabatı**

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 32 işdən 26 işə baxılmışdır. Baxılmış işlərdən 10-da məhkəmə aktı ləğv edilmişdir. Onlardan 7 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 3 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmişdir: 1 işdə icraata xitam verilmiş, 1 işdə qətnamə qismən ləğv edilərək, həmin hissədə iddia təmin edilmiş, 1 işdə isə qətnamə qismən ləğv edilərək, həmin hissədə icraata xitam verilmiş, qalan hissədə isə dəyişdirilmədən saxlanılmışdır.






## 2019-2020-Cİ İLLƏR ƏRZİNDƏ GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİNDƏN DAXİL OLMUŞ İŞLƏR BARƏDƏ HESABAT









Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərin sayında 19 iş (42,2%) azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 21 (56,8%) iş azalma, ləğv edilmiş işlərin sayında isə 2 (25%) iş artma olmuşdur.




Qeyd olunan məhkəmə aktlarının 30%-nin ləğv edilməsinin səbəbi prosessual hüquq normalarının pozulması, 20%-nin maddi hüquq normalarının pozulması, 50%-nin isə həm maddi, həm də prosessual hüquq normalarının pozulması olmuşdur.

## 1.15.3. SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə daxil olmuş 430 işdən 37 (8,6%) iş Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 27 (72,97%) işə 2020-ci ildə baxılmış, 7 (18,92%) iş növbəti ilə qalıq keçmiş, 3 (8,11%) iş üzrə isə kassasiya şikayəti geri qaytarılmışdır.



Baxılmış işlər üzrə 19 (70,37%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 (29,63%) məhkəmə aktı isə ləğv edilmişdir.



## Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabatı

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 37 işdən 27 işə baxılmışdır. Baxılmış işlərdən 8-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 7 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 iş üzrə məhkəmə aktı ləğv edilərək, məhkəmə aidiyyəti qaydalarına müvafiq olaraq iş ümumi yusidiksiyalı məhkəməyə baxılması üçün göndərilmişdir.






**2019-2020-ci illər ərzində Sumqayıt Apellyasiya Məhkəməsindən Daxil olmuş işlər barədə hesabat**










Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərin sayında 23 iş (46%) azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 21 (52,5%) iş, ləğv edilmiş işlərin sayında isə 2 (20%) iş azalma olmuşdur.




Qeyd olunan məhkəmə aktlarının 50%-nin ləğv edilməsinin səbəbi prosessual hüquq normalarının pozulması, 10%-nin maddi hüquq normalarının pozulması, 40%-nin isə həm maddi, həm də prosessual hüquq normalarının pozulması olmuşdur.

## 1.15.4. ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə daxil olmuş 430 işdən 37 (8,6%) iş Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 19 (51,35%) işə 2020-ci ildə baxılmış, 12 (32,43%) iş növbəti dövrə keçmiş, 5 (13,51%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 1 (2,7%) iş isə məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.



Baxılmış 19 işdən 9 (47,37%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 (42,11%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 2 (10,53%) iş üzrə məhkəmə aktı isə dəyişdirilmişdir.



## 2020-ci ildə Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasından daxil olan ləğv edilmiş işlərin kateqoriyalar üzrə bölgüsü

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında ləğv edilmiş məhkəmə aktlarını iddiaların kateqoriyaları üzrə təhlil etdikdə görünür ki, 2 iş icarə müqaviləsi, 1 iş xidmət müqaviləsi, 1 iş borcun silinməsi, 1 iş mühafizə zonası, 1 iş iflas, 1 iş əmlakın hərracda satılması, 1 iş buraxılmış prosessual müddətin bərpası ilə bağlı olmuşdur.

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| İcarə müqaviləsi | 2 | 25% |
| Xidmət müqaviləsi | 1 | 12,5% |
| Borcun silinməsi | 1 | 12,5% |
| Mühafizə zonası | 1 | 12,5% |
| İflas | 1 | 12,5% |
| Əmlakın hərracda satılması | 1 | 12,5% |
| Buraxılmış prosessual müddətin bərpası | 1 | 12,5% |
| Cəmi | 8 | 100% |

## Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabat

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 37 işdən 19 işə baxılmışdır. Baxılmış işlərdən 8-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 8 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmişdir.






**2019-2020-ci illər ərzində Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barədə hesabat**












Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərin sayında 10 iş (34,5%) azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 4 (30,8%) iş, ləğv edilmiş işlərin sayında 8 (50%) iş azalma, dəyişdirilmiş işlərin sayında isə 2 iş artma olmuşdur.




Qeyd olunan məhkəmə aktlarının 40%-nin ləğv edilməsinin səbəbi prosessual hüquq normalarının pozulması, 12,5%-nin maddi hüquq normalarının pozulması, 37,5%-nin isə həm maddi, həm də prosessual hüquq normalarının pozulması olmuşdur.

## 1.15.5. ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə daxil olmuş 430 işdən 12 (2,8%) iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 6 (50%) işə 2020-ci ildə baxılmış, 4 (33,33%) iş növbəti dövrə qalıq keçmiş, 1 (8,33%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 1 (8,33%) iş isə məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.



Baxılmış 6 işdən 1 (16,67%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 (66,67%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (16,67%) iş üzrə məhkəmə aktı dəyişdirilmişdir.



## 2020-ci ildə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasından daxil olan ləğv edilmiş işlərin kateqoriyalar üzrə bölgüsü

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında ləğv edilmiş məhkəmə aktlarını iddiaların kateqoriyaları üzrə təhlil etdikdə görünür ki, 1 iş borcun silinməsi, 1 iş mühafizə zonası, 2 iş kredit müqaviləsi ilə bağlı olmuşdur.

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Kredit müqaviləsi | 2 | 50% |
| Borcun silinməsi | 1 | 25% |
| Mühafizə zonası | 1 | 25% |
| Cəmi | 4 | 100% |

## Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə bölgüsü

2020-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 12 işdən 6 işə baxılmışdır. Baxılmış işlərdən 4-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 3 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilərək, icraata xitam verilmişdir.






**2019-2020-ci illər ərzində Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barədə hesabat**












Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərin sayında 10 iş (62,5%) azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 9 (90%) iş, ləğv edilmiş işlərin sayında 2 (33,3%) iş azalma, dəyişdirilmiş işlərin sayında isə 1 iş artma olmuşdur.




Qeyd olunan məhkəmə aktlarının 25%-nin ləğv edilməsinin səbəbi prosessual hüquq normalarının pozulması, 25%-nin maddi hüquq normalarının pozulması, 50%-nin isə həm maddi, həm də prosessual hüquq normalarının pozulması olmuşdur.

## 1.15.6. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ

2020-ci ildə daxil olmuş 430 işdən 1 (0,2%) iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuşdur. Həmin iş üzrə məhkəmə aktı ləğv edilmişdir.



## 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası üzrə ləğv edilmiş işlərin kateqoriyalar üzrə bölgüsü

| İDDİANIN KATEQORİYASI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Kredit müqaviləsi | 1 | 100% |
| Cəmi | 1 | 100% |

## 2019-2020-ci illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin işlərinə baxılması barədə hesabat (müqayisəli şəkildə)







Beləliklə, 2020-ci ildə 2019-cu illə müqayisədə baxılmış işlərdə 1 iş (100%) artma olmuşdur. Həmin iş üzrə məhkəmə aktı ləğv edildiyi üçün ləğv edilmiş məhkəmə aktlarında 100% artma olmuşdur.

Qeyd olunan məhkəmə aktı həm maddi, həm də prosessual hüquq normalarının pozulması səbəbindən ləğv edilmişdir.

# *II. Apellyasiya məhkəmələrinin icraatında olan kommersiya mübahisələrinə dair işlərin hesabatı*

## 2.1. BAKI APELLYASİYA MƏHKƏMƏSİ

### 2.1.1. Ümumi hesabat

2020-ci ildə icraatda 865 iş olmuşdur. Onlardan 97 iş 2019-cu ildən qalıq keçmiş, 768 iş 2020-ci ildə daxil olmuşdur. Belə ki, 2019-cu ildə Kommersiya Kollegiyasının (İnzibati-İqtisadi Kollegiya) icraatında 988 iş olmuşdur. Onlardan 96 iş 2018-ci ildən qalıq keçmiş, 892 iş 2019-cu ilin 1 yanvar - 1 iyul aylarında daxil olmuşdur. Ötən illə müqayisədə qalıq keçən işlərin sayında artma, daxil olan işlərin sayında isə azalma müşahidə olunmuşdur.




2020-ci ildə daxil olmuş işlərdən 592 (68,4%) işə baxılmış, 202 (23,4%) iş növbəti ilə qalıq keçmiş, 8 (0,9%) iş üzrə apellyasiya icraatına xitam verilmiş, 2 (0,2%) iş məhkəmə aidiyyəti üzrə göndərilmiş, 61 (7,1%) iş isə baxılmadan geriyə qaytarılmışdır.




Baxılmış işlərdən 374 iş qətnamə, 218 iş qərardadlarla bağlı olmuşdur. 374 qətnamədən 253 (67,6%) qətnamə dəyişdirilmədən saxlanılmış, 88 (23,5%) qətnamə ləğv

edilərək yeni qətnamə çıxarılmış, 13 (3,5%) qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş, 1 (0,3%) qətnamə ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 19 (5,1%) qətnamə dəyişdirilmişdir. 218 qərardaddan 153 (70,2%) qərardad dəyişdirilmədən saxlanılmış, 56 (25,7%) qərardad ləğv edilmiş, 9 (4,1%) qərardad dəyişdirilmişdir. Baxılmış 360 iş üzrə qətnamə çıxarılmış, 61 iş üzrə apellyasiya mümkün sayılmamış, 13 iş üzrə icraata xitam verilmiş, 1 iş üzrə iddia baxılmamış saxlanılmışdır.



Baxılmış işlərdən ümumən 255 işdən kassasiya şikayəti verilmişdir. Onlardan 184 işə baxılmışdır. Kassasiya qaydasında 129 (70,3%) iş qüvvədə saxlanılmışdır. Kassasiya qaydasında 54 (29,2%) iş ləğv edilmişdir. 1 (0,5%) iş üzrə məhkəmə qərarı dəyişdirilmişdir.




Keçən ilin müvafiq dövrü ilə müqayisədə məhkəmə aktlarının ləğv statistikasında azalma istiqamətində dəyişiklik baş vermişdir. Belə ki, 2019-cu ilin müvafiq dövründə kassasiya qaydasında 88 iş ləğv edilmişdir.

## 2.2. GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

### 2.2.1. Ümumi hesabat

2020-ci ildə icraatda cəmi 169 iş olmuşdur. Onlardan 34 iş (20,1%) 2019-cu ildən qalıq keçmiş, 135 iş (79,9%) isə 2020-ci ilin 01 yanvar - 30 dekabr tarixlərində daxil olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə (154 iş daxil olmuş - 39 iş (25,3%) 2018-ci ildən qalıq keçmiş, 115 iş (74,7%) isə 2019-cu ildə daxil olmuşdur) icraatda olan iş sayı 15 iş (9,7%) qədər artmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ayrıca götürülməklə qalıq keçən və daxil olan işlərin sayında dinamika aşağıdakı kimi olmuşdur: 2018-ci ildən 2019-cu ilə 39 iş qalıq olaraq keçmiş, 115 iş yeni daxil olmuşdur. 2019-cu ildən isə 2020-ci ilə 34 iş qalıq keçmiş, 135 iş yeni daxil olmuşdur. 2020-ci ildə qalıq keçən işlərin sayında azalma və daxil olan işlərin sayında artma olmuşdur.




2020-ci ildə icraatda olmuş ümumi işlərin 105-nə (62,1%) mahiyyəti üzrə baxılmış, 7 iş (4,1%) üzrə apellyasiya icraatına xitam verilmiş, 4 iş (2,4%) baxılmadan geri qaytarılmış, 53 iş (31,4%) isə 2021-ci ilə qalıq olaraq keçmişdir.



2020-ci ildə mahiyyəti üzrə baxılmış işlər üzrə 71-i (67,6%) qətnamələrdən verilən şikayətlərlə bağlı, 34-ü isə (32,4%) qərardadlardan verilən şikayətlərlə bağlı olmuşdur. 38 iş (53,5%) üzrə qətnamə qüvvədə saxlanılmış, 10 iş (14,1%) üzrə qətnamə tamamilə ləğv edilmiş, 19 iş (26,8%) üzrə qətnamə qismən ləğv edilmiş, 1 iş (1,4%) üzrə qətnamə tamamilə ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 3 iş (4,2%) üzrə qətnamə dəyişdirilmişdir. 23 iş (67,6%) üzrə qərardad qüvvədə saxlanılmış, 7 iş (20,6%) üzrə qərardad tam ləğv edilmiş, 4 iş (11,8%) üzrə qərardad qismən ləğv edilmiş, 7 iş üzrə apellyasiya icraatına xitam verilmiş, 4 iş isə baxılmadan geri qaytarılmışdır.



Gəncə Apellyasiya Məhkəməsində baxılmış 32 işdən kassasiya şikayəti verilmiş, onlardan 26-na baxılaraq qərar verilmişdir. Həmin işlərdən 16 iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 10 iş isə ləğv edilmişdir. 2 iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş, 1 iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.



## 2.3. SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

### 2.3.1. Ümumi hesabat

2020-ci ildə kommersiya kollegiyasının icraatında 171 iş olmuşdur. Onlardan 25 iş (14,6%) 2019-cu ildən qalıq keçmiş, 146 (85,4%) iş isə 2020-ci ildə daxil olmuşdur. Onlardan 2 iş icra icraatı ilə bağlı material olmuşdur. 2019-cu il ilə müqayisədə 2020-ci ildə 20 iş az olmuşdur.




2020-ci ildə icraatda olmuş işlərin 120-nə (70,17%) mahiyyəti üzrə baxılmış, 42 (24,56%) iş isə qalıq olaraq 2021-ci ilə keçmişdir.



2020-ci ildə mahiyyəti üzrə baxılmış 120 işdən 58 (48,3 %) iş üzrə qətnamə, 62 (51,7 %) iş üzrə qərardad çıxarılmışdır. Çıxarılmış 58 qətnamədən 38-i (65,6 %) dəyişdirilmədən saxlanılmış, 9-u (15,5 %) tam, 6-sı (10,3 %) isə qismən ləğv edilərək yeni qətnamə çıxarılmış, 3 (5,1 %) iş üzrə qətnamə tamamilə ləğv edilərək iş üzrə icraata xitam verilmiş, 2-si (3,4 %) isə dəyişdirilmişdir. 21 (33,87 %) iş üzrə qərardad tam, 1 (1,6 %) iş üzrə qərardad qismən ləğv olunaraq iş birinci instansiya məhkəməsinə göndərilmiş, 40 (64,5 %) iş üzrə qərardad isə dəyişdirilmədən saxlanılmışdır.



2020-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsində baxılmış 27 (22,5 %) qətnamədən kassasiya şikayəti verilmişdir. 2020-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsində baxılmış 18 (66,6 %) iş üzrə qətnamə kassasiya instansiyası məhkəməsi tərəfindən dəyişdirilmədən saxlanılmışdır. 2020-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsində baxılmış 7  (25,9 %) iş üzrə qətnamə kassasiya instansiyası məhkəməsi tərəfindən ləğv edilərək yenidən baxılması üçün apelyasiya instansiya məhkəməsinə göndərilmişdir.




2019-cu il (9 iş, 34 %) ilə müqayisədə 2020-ci ildə (7 iş, 25,9%) 8,1% iş kassasiya qaydasında az ləğv olunmuşdur. İcra icraatı ilə bağlı daxil olmuş 2 materialdan 1 iş üzrə borclunun bank hesabına həbsin qoyulması barədə qərardad qüvvədə saxlanılmış, 1 iş üzrə isə qərarın icra üsulunun dəyişdirilməsi barədə qərardad ləğv edilmişdir.

## 2.4. ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

### 2.4.1. Ümumi hesabat

2020-ci ildə kommersiya mübahisələri ilə bağlı məhkəmənin icraatında 175 iş olmuşdur. İcraatda olmuş 175 işdən 33 iş 2019-cu ildən qalıq keçmiş, 142 iş isə 2020-ci ildə daxil olmuşdur. 2020-ci il ərzində kommersiya kollegiyasının icraatında olmuş 175 iş 2019-cu ildə icraatda olmuş 110 işdən 65 iş, yəni 37,1% çoxdur. 2019-cu ildə icraatda olmuş 110 işdən 18 il 2018-ci ildən qalıq keçmiş, 92 iş isə 2019-cu ildə daxil olmuşdur




2020-ci ildə daxil olmuş 175 işdən 63 iş (30%) növbəti ilə qalıq keçmişdir. Bu isə 2019-ci ildə qalıq keçmiş 33 işdən 30 iş (47,6%) çox olmuşdur. İcraatda olmuş 175 işdən 105 (60%) işə baxılmış, 63 (30%) iş isə 2021-ci ilə qalıq keçmişdir.



Baxılmış 105 işdən 80 (76,2%) iş üzrə qətnamə, 25 (23,8%) iş üzrə qərardad qəbul edilmişdir. Məhkəmə aktlarından 77-si dəyişdirilmədən saxlanılmış, 24-ü ləğv edilmiş, 4-ü isə dəyişdirilmişdir. 6 (3,4%) iş üzrə apellyasiya şikayəti qeyri-mümkün hesab edilmiş, 1 (0,5%) iş üzrə aidiyyət məsələsi ilə bağlı olmuş, 1 iş üzrə qətnamə ləğv edilərək icraata xitam verilmiş, 1 iş üzrə qətnamə ləğv edilərək iddia baxılmamış saxlanılmışdır.



2020-ci ildə Şirvan Apellyasiya Məhkəməsində baxılmış 37 işdən kassasiya şikayəti verilmişdir. Onlardan 19 kassasiya şikayətinə baxılmışdır. Həmin işlərdən 9 işin məkəmə aktları dəyişdirilmədən saxlanılmış, 8 iş üzrə isə məhkəmə aktı ləğv edilmiş, 2 məhkəmə aktı isə dəyişdirilmişdir. 5 kasssasiya şikayəti geri qaytarılmışdır. Məhkəmə aidiyyətinə dair 1 işə baxılmışdır.



# 2.5. ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

## 2.5.1. Ümumi hesabat

2020-ci ildə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında cəmi 60 iş (kommersiya icraatı üzrə - 58 (96,67%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 2 (3,33%) material) olmuşdur. Təhlil zamanı müəyyən edilmişdir ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə məhkəmənin icraatına daxil olan bu qəbildən olan işlərin sayı 11,76 % (8 iş) azalmışdır. Belə ki, 2019-cu ildə kollegiyanın icraatında 68 iş (kommersiya icraatı üzrə - 66 (97,06%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 2 (2,94%) material) olmuşdur.

2020-ci ildə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olan 60 işdən 6 (10%) iş 2019-cu ildən qalıq keçmiş, 54 iş (90%) isə 2020-ci ildə daxil olmuşdur. 2019-cu ildə isə 2018-ci ildən qalıq keçən işlərin sayı 8, daxil olan işlərin sayı isə 60 olmuşdur. Beləliklə, 2020-ci ildə 2019-cu il ilə müqayisədə qalıq işlərin sayında 25% (2 iş), daxil olan işlərin sayında isə 10% (6 iş) azalma baş vermişdir.




Hesabat dövründə kollegiyanın icraatında olan 60 işdən 48-i (80%) yekunlaşdırılmış, 12 (20%) iş isə 2021-ci ilə qalıq keçmişdir.



Baxılmış 48 məhkəmə işindən 46 işə (95,84%) apellyasiya qaydasında baxılmış, 1 (2,08%) iş üzrə (qətnamə) MPM-in 369-cu maddəsinə əsasən apellyasiya icraatına xitam verilmiş, 1 (2,08%) iş üzrə isə aidiyyət məsələsinə baxılmışdır.




Həmin 46 kommersiya işindən 38 (82,61%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 6 (13,04%) məhkəmə aktı tam ləğv edilmiş, 2 (4,35%) məhkəmə aktı dəyişdirilmişdir.



8 iş üzrə qəbul edilmiş qətnamələrdən 22 (78,58%) qətnamə dəyişdirilmədən saxlanılmış, 3 (10,71%) qətnamə tam ləğv edilərək, yeni qətnamə qəbul edilmiş, 1 (3,57%) qətnamə ləğv edilərək iddia (ərizə) baxılmamış saxlanılmış, 2 (7,14%) qətnamə dəyişdirilmişdir.




18 iqtisadi iş üzrə qəbul edilmiş qərardadlardan 16 (88,89%) qərardad dəyişdirilmədən saxlanılmış, 2 (11,11%) qərardad tam ləğv edilmişdir.




2019-cu il ilə müqayisədə 2020-ci ildə birinci instansiya məhkəməsinin ləğv olunan məhkəmə aktlarının sayı azalmışdır. Belə ki, 2019-cu ildə apellyasiya qaydasında baxılmış 57 kommersiya işindən 35 (61,4%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 13 (22,81%) məhkəmə aktı tam ləğv edilmiş, 5 (8,77%) məhkəmə aktı qismən ləğv edilmiş, 4 (7,02%) məhkəmə aktı dəyişdirilmişdir.

## 2.6. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ

### 2.6.1. Ümumi hesabat

2020-ci ildə Naxçıvan MR Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatına cəmi 10 iş daxil olmuşdur. Onlardan 1 iş (10%) 2019-cu ildən qalıq keçmiş, 9 iş (90%) isə 2020-ci ildə daxil olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ümumən icraatda olan iş sayı azalmışdır. Belə ki, 2019-cu ildə kollegiyanın icraatına 11 iş daxil olmuşdursa, 2020-ci ildə kollegiyanın icraatına 10 iş daxil olmuşdur. Kollegiyanın icraatına daxil olmuş iş sayı 9.09% azalmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qalıq keçən və daxil olan işlərin sayında artma müşahidə olunmuşdur. Belə ki, 2019-cu ildə kollegiyanın icraatına cəmi 11 iş (100%) daxil olmuşdursa (2018-ci ildən qalıq qalan iş olmamışdır), 2020-ci ildə kollegiyanın icraatına ümumilikdə daxil olan 10 işdən 1 iş (10%) ötən ildən qalıq qalmış, 9 iş (90%) isə cari ildə daxil olmuşdur.




2020-ci ildə icraatda olmuş 10 işdən 8 iş (80%) yekunlaşmış, 2 iş (20%) isə növbəti ilə qalıq keçmişdir.



Yekunlaşmış işlər üzrə 2 qətnamə (25%) və 3 qərardad (37.5%) çıxarılaraq birinci instansiya məhkəməsinin qətnaməsi və qərardadları dəyişdirilmədən saxlanılmış, 1 iş (12.5%) üzrə iddia (ərizə) baxılmamış saxlanmış, 1 iş (12.5%) üzrə qətnamə qismən ləğv edilərək yeni qətnamə qəbul edilmiş, 1 iş (12.5%) üzrə apellyasiya şikayətinin icraatına xitam verilmişdir.




Keçən ilin müvafiq dövrü ilə müqayisədə məhkəmə aktlarının ləğvi statistikasında azalma müşahidə edilmişdir. Belə ki, 2019-cu ildə baxılmış 10 iş üzrə 3 qərardad (30%) ləğv edilmişdirsə 2020-ci ildə baxılmış 8 iş üzrə 2 qətnamə (25%) ləğv edilmişdir.

2019-cu ildə baxılmış işlərdən Azərbaycan Respublikası Ali Məhkəməsinə 1 kassasiya şikayəti (9.09%) verilmiş, kassasiya şikayətinə baxılaraq 1 qətnamə qismən ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiya məhkəməsinə göndərilmişdir. 2020-ci ildə baxılmış işlərdən Azərbaycan Respublikası Ali Məhkəməsinə 1 kassasiya şikayəti (9.09%) verilmiş, hal-hazırda kassasiya şikayəti icraatdadır.

## *III. Ölkə üzrə birinci instansiya məhkəmələrinin fəaliyyətinə dair hesabat*

### 3.1. BAKI KOMMERSİYA MƏHKƏMƏSİ

Bakı Kommersiya Məhkəməsinə 2020-ci il ərzində, yəni 2020-ci ilin yanvar-dekabr aylarında 3588 iş daxil olmuşdur. 2019-cu ildən hesabat dövrünün əvvəlinə qalıq keçən 574 iş olmaqla həmin dövrdə məhkəmənin icraatında ümumilikdə 4162 iş olmuşdur. 2019-cu il ərzində 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin icraatında iqtisadi mübahisələrə dair 1627 iş, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin icraatında 1408 iş olmaqla, hər iki məhkəmənin icraatında ümumilikdə 3035 iqtisadi mübahisələrə dair iş olmuşdur. 2019-cu ili ilə müqayisədə 2020-ci ildə ümumən iş sayında 1127 iş sayında artım olmuşdur.




2020-ci il ərzində 3588 iş daxil olmuş və 829 iş növbəti ilə keçmişdir. 2020-ci il ərzində icraatda olmuş ümumilikdə 4162 işdən 2251-nə, yəni 54,08 %-nə mahiyyəti üzrə baxılmış, 160 iş üzrə, 3,84 % icraatı dayandırılmış, 829 yəni 19,9 % iş qalıq olaraq növbəti ilə keçmişdir. 2020-ci il ərzində məhkəməyə daxil olmuş kommersiya mübahisələrinə dair iddia ərizələrindən 597-si, yəni 16,6 %-i geri qaytarılmışdır.



2020-ci ildə baxılmış işlərdən 292 (7,01 %) iş üzrə iddia ərizəsi baxılmamış saxlanılmış, 142 (3,4 %) iş üzrə icraata xitam verilmiş, ümumilikdə 2251 (54,08 %) iş üzrə qətnamə qəbul edilmiş, 185 (4,4 %) iş üzrə iddia rədd, 2066 (49,6 %) iş üzrə təmin, 53 (1,3 %) iş qismən təmin edilmiş, 51 (1,2 %) iş məhkəmə aiddiyyəti üzrə göndərilmişdir.



## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Əmlak tələbi, torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr üzrə (ümumilikdə) | **30** | **0,7 %** |
| Alqı-satqı müqaviləsi | **452** | **10,8 %** |
| Kirayə müqaviləsi | **6** | **0,14 %** |
| Daşınma müqaviləsi | **37** | **0,8 %** |
| İcarə müqaviləsi | **128** | **3,07 %** |
| Borc müqaviləsi | **119** | **2,8 %** |
| Kredit müqaviləsi | **239** | **5,7%** |
| İpoteka müqaviləsi | **7** | **0,2%** |
| Zaminlik müqaviləsi | **3** | **0,07 %** |
| Lizinq müqaviləsi | **88** | **2,1 %** |
| Podrat müqaviləsi | **73** | **1,7%** |
| Tapşırıq müqaviləsi | **23** | **0,5 %** |
| Sığorta müqaviləsi | **70** | **1,7%** |
| Bank əmanətləri və bank hesabı müqaviləsi | **12** | **0,3 %** |
| Digər müqavilələr | **842** | **20,2 %** |
| Müqavilənin etibarsız hesab edilməsi | **12** | **0,3 %** |
| Müqavilənin bağlanması barədə mübahisələr | **4** | **0,09%** |
| Müqavilənin dəyişdirilməsi ilə bağlı yaranmış mübahisələr | **8** | **0,2%** |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin  ölkədən getmək | **1262** | **30,3 %** |

| | | |
|---|---|---|
| hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | | |
| Bankın öhdəliklərinin könüllü restrukurizasiyası | **2** | **0,04%** |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | **70** | **1,7 %** |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | **505** | **12,1 %** |
| Sənaye mülkiyyəti obyektlərindən ( əmtəə nişanı, coğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi) istifadə və onların hüquqi mühafizəsi ilə bağlı yaranmış mübahisələr | **10** | **0,2 %** |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması barədə | **41** | **0,9 %** |
| Qiymətli kağızlar barədə mübahisələr | **9** | **0,2 %** |
| Öhdəliklərin icra edilməməsinə görə məsuliyyətlə (zərər) bağlı | **32** | **0,7 %** |
| Müflişləşmə ilə bağlı mübahisə | **16** | **0,4 %** |
| Digər kateqoriyalar | **62** | **1,5 %** |

## 2020-ci ildə daxil olmuş işlərin subyekt tərkibi üzrə bölgüsü

| **SUBYEKT TƏRKİBİ** | SAY |
|---|---|
| Fərdi sahibkar | **378** |
| Kommersiya hüquqi şəxs | **1751** |
| Publik hüquqi şəxs | **505** |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | **17** |
| Hüquqi şəxsin ləğvedicisi | **5** |
| Dövlət orqanı | **1506** |

2020-ci il ərzində baxılmış 282-si qətnamədən, 219-u qərardaddan olmaqla, ümumilikdə 501 işdən şikayət verilmişdir. Həmin müddət ərzində Bakı Apellyasiya Məhkəməsi tərəfindən qərardadlardan verilmiş 167 şikayətə və qətnamələrdən verilmiş 133 apellyasiya şikayətinə baxılmışdır. Məhkəmənin icraatında olmuş işlər üzrə qəbul edilmiş qərardadlardan verilmiş şikayətə baxılaraq 122 qərardad, Bakı Apellyasiya Məhkəməsinə şikayətə baxılması üçün göndərilmiş işlərin 73 %-i, qətnamələrdən verilmiş şikayət üzrə isə baxılmış işlərin 99-u (74 %) dəyişdirilmədən qüvvədə saxlanılmışdır. Apellyasiya qaydasında baxılmış qərardadlardan verilmiş şikayətlər nəticəsində məhkəmənin 36 qərardadı (22 %) ləğv edilmiş, qərardadlardan 9-u (5%) dəyişdirilmişdir. Qətnamələrdən verilən apellyasiya şikayətlərinə baxılması nəticəsində isə qətnamələrin 99-u (74 %) qüvvədə saxlanılmış, 26-sı, (20%) ləğv edilmiş, 8-i (6%) dəyişdirilmişdir. İcraatda olmuş 4 iş üzrə işdə iştirak etməyən şəxs tərəfindən şikayət verilmişdir.



# 3.2. GƏNCƏ KOMMERSİYA MƏHKƏMƏSİ

2020-ci ildə məhkəmənin icraatında cəmi 1101 iş olmuşdur. Onlardan 86 iş 2019-cu ildən qalıq keçmiş, 1015 iş isə hesabat dövründə daxil olmuşdur. 2019-cu illə müqayisədə ümumən işlərin sayı 293 iş artmışdır. 2019-cu ilin əvvəlinə qalıq keçmiş işlərin sayı 152, daxil olan işlərin sayı isə 656 olmuşdur.




2020-ci ildə icraatda olmuş işlərin 894-nə baxılmış, o cümlədən 742 iş qətnamə çıxarılmaqla həll edilmiş, 8 iş üzrə icraata xitam verilmiş, 34 iş üzrə ərizələr baxılmamış saxlanılmış, 98 iş üzrə ərizələr geri qaytarılmışdır. 207 iş isə 2021-ci ilə qalıq keçmişdir.



2020-ci ildə qətnamə çıxarılmaqla həll edilən 742 işdən 637 iş üzrə iddia təmin edilmiş, 83 iş üzrə iddia qismən təmin edilmiş, 22 iş üzrə iddia rədd edilmişdir. 8 iş üzrə icraata xitam verilmiş, 98 iş üzrə ərizə geri qaytarılmışdır.



**2020-ci ildə daxil olmuş işlərin kateqoriyalar üzrə bölgüsü**

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **6** | **0,67%** |
| Torpaq mübahisələri | **5** | **0,56%** |
| Müqavilə öhdəliklərindən irəli gələn mübahisələr | **245** | **27,40%** |
| Alqı-satqı müqaviləsi | **31** | **3,47%** |
| Daşıma müqaviləsi | **1** | **0,11%** |
| İcarə müqaviləsi | **3** | **0,36%** |
| Borc (kredit) müqaviləsi | **46** | **5,15%** |
| Lizinq müqaviləsi | **35** | **3,91%** |
| Sığorta müqaviləsi | **1** | **0,11%** |
| Sair öhdəliklər üzrə mübahisələr | **128** | **14,32%** |
| Vergi mübahisələri | **55** | **6,15%** |
| Müqavilənin bağlanması, ləğvi, etibarsız hesab edilməsi ve yaxud dəyişdirilməsi | **7** | **0,78%** |
| Vergi mübahisələri | **55** | **6,15%** |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | **333** | **37,25%** |
| Kreditorun tələbləri üzrə əmr icraatı | **23** | **2,57%** |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələ | **4** | **0,45%** |
| Sair işlər | **216** | **24,16%** |

**2020-ci ildə daxil olmuş işlərin subyekt tərkibi üzrə bölgüsü**

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | **612** |
| Kommersiya hüquqi şəxs | **185** |
| Bələdiyyə | **6** |
| Hüquqi şəxsin ləğvedicisi | **21** |
| Dövlət orqanı | **494** |
| Digər | **21** |

2020-ci ildə baxılmış işlərdən 128 iş üzrə qətnamələrdən, 41 iş üzrə qərardadlardan apellyasiya şikayəti verilmişdir (kateqoriyalar üzrə 5 iş torpaq mübahisəsi, 2 iş vergi mübahisəsi, 1 iş icarə müqaviləsi, 28 iş borc müqaviləsi, 14 iş kredit müqaviləsi, 6 iş sair öhdəlik mübahisələri, 4 iş vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr və 45 iş sair işlərə aid olmuşdur). Hesabat dövründə 38 iş üzrə qətnamələr və 23 iş üzrə qərardadlar dəyişdirilmədən saxlanılmışdır. 30 iş üzrə qətnamə və 11 iş üzrə qərardad ləğv edilmişdir. 10 iş üzrə tamamilə və 19 iş üzrə qismən ləğv edilməklə yeni qətnamələr çıxarılmış, 1 iş üzrə qətnamə ləğv edilməklə ərizə baxılmamış saxlanılmış, 3 iş üzrə qətnamə dəyişdirilmişdir. Qərardadlar 7 iş üzrə tamamilə və 4 iş üzrə qismən ləğv edilməklə, işlər birinci instansiya məhkəməsinə göndərilmişdir.




2019-cu ildə apellyasiya qaydasında 33 iş üzrə qətnamələr dəyişdirilmədən saxlanılmış, 36 qətnamə ləğv edilmiş, 22 iş üzrə qərardadlar dəyişdirilmədən saxlanılmış, 14 iş üzrə qərardadlar ləğv edilmişdir. 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktlarının ləğv statistikasında azalma istiqamətində dəyişiklik olmuşdur.

2020-ci ildə 12 iş məhkəmə aidiyyəti ilə bağlı baxılması üçün ümumi məhkəmələrə göndərilmiş, ümumi məhkəmələrdən 44 iş daxil olmuş, daxil olmuş işlərdən 1 işlə bağlı məhkəmə aidiyyəti məsələsinə dair fikir ayrılığı olmuşdur.

## 3.3. SUMQAYIT KOMMERSİYA MƏHKƏMƏSİ

2020-ci ildə məhkəmənin icraatında cəmi 1014 iş olub, onlardan 78 iş (7,7%) 2019-cu ildən qalıq keçmiş, 936 iş (92,3%) isə 2020-ci ilin 01 yanvar – 30 dekabr tarixlərində daxil olmuşdur. 2019-cu ildə cəmi 658 iş olub, onlardan 134 iş (20,4 %) 2018-ci ildən qalıq keçmiş, 524 iş (79,6 %) isə 2019-ci ilin 01 yanvar – 30 dekabr tarixlərində daxil olmuşdur. 2019-cu illə müqayisədə ümumən icraatda olan işlərin sayı 356 iş (54,1%) artmışdır. Ötən illə müqayisədə ayrıca götürülməklə qalıq keçən işlərin sayı 109 iş (139,7%) artmışdır. Ötən illə müqayisədə ayrıca götürülməklə daxil olan işlərin sayı 412 iş (78,6%) artmışdır.




2020-ci ildə icraatda olmuş 1014 işdən 827 işə (75,2%) baxılmış, 187 iş (24,8%) isə qalıq olaraq növbəti yarımilə keçmişdir. Daxil olan iddia ərizələrindən 272 iş (26,8%) geri qaytırılmış, 35-i (3,5%) iddianın yolveriməzliyinə görə qəbulundan imtina edilmişdir.



2020-ci ildə baxılmış işlərdən 463 iş üzrə qətnamə çıxarılmış, onlardan 431 iş üzrə (93,5%) təmin, 35 iş üzrə (7,6%) qismən təmin, 19 iş (4,1%) rədd edilmişdir; 5 (1%) iş üzrə icraata xitam verilmişdir, 93 iş üzrə (20%) ərizə baxılmamış saxlanılmışdır, 35 (7,6%) iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmişdir.



## 2020-ci ildə baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Alqı-satqı müqaviləsi | **97** | **11,23%** |
| Daşınma müqaviləsi | **5** | **0,58%** |
| Borc (kredit) müqaviləsi | **9** | **1,04%** |
| İcarə müqaviləsi | **22** | **2,55%** |
| Zaminlik | **7** | **0,81%** |
| Lizinq müqaviləsi | **60** | **6,94%** |
| Podrat müqaviləsi | **8** | **0,92%** |
| Tapşırıq müqaviləsi | **11** | **1,28%** |
| Bank əmanəti müqaviləsi | **1** | **0,16%** |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | **432** | **50%** |
| Müqavilənin bağlanması, ləğvi, etibarsız hesab edilməsi və yaxud dəyişdirilməsi | **9 (2+7)** | **0,5%** |
| Təbii inhisar subyektləri (“Azəriqaz”, “Azərsu” və “Azərişıq”) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | **88** | **10,19%** |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | **89** | **10,30%** |
| Digər kateqoriyalar | **26** | **3%** |

## 2020-ci ildə daxil olmuş işlərin subyekt tərkibi üzrə bölgüsü

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | **795** |
| Kommersiya hüquqi şəxs | **639** |
| Publik hüquqi şəxs | **1** |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | **6** |
| Hüquqi şəxsin ləğvedicisi | **16** |
| Dövlət orqanı | **565** |
| Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | **2** |
| Bələdiyyə | **8** |

2020-ci ildə Sumqayıt Kommersiya Məhkəməsində baxılmış işlərdən ümumən 168 apellyasiya şikayəti verilib, qərardadlardan verilən şikayətlərin sayı 69 (41.1%), qətnamələrdən verilən şikayətlərin sayı 99 (58,9%).

Cəmi şikayətlərin sayı 168 (24,3%), qərardadlardan verilən şikayətlərin sayı 69 (41,1%), onlardan 60 işə baxılıb; onlardan dəyişdirilib - 0, dəyişdirilmədən saxlanılıb 39 (65%), ləğv edilib 21 (35%); qətnamələrdən verilən şikayətlərin sayı 99 (58,9%), onlardan 57 işə baxılıb; dəyişdirilib - 2 (3,5%), dəyişdirilmədən saxlanılıb 38 (66,7%), ləğv edilib 17 (29,8%). İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-nin 357.2-ci maddəsinə müvafiq olaraq apellyasiya şikayəti verilməmişdir.




2019-cu ildə qərardadlardan verilən şikayətlərin sayı 59, baxılıb 56 (95%), ləğv edilib 13 (23%) – 2020-ci ildə qərardadlardan verilən şikayətlərin sayı 69, baxılıb 60 (87%), ləğv edilib 21 (35%). 2019-cu ildə qətnamələrdən verilən şikayətlərin sayı 126, baxılıb 96, ləğv edilib 25 (26%) – 2020-ci ildə qətnamələrdən verilən şikayətlərin sayı 99, baxılıb 57, ləğv edilib 17 (29.8%)

Kommersiya məhkəmələrindən ümumi məhkəmələrə göndərilmiş işlərin sayı – 6 iş ( 0,6 %), ümumi məhkəmələrdən kommersiya məhkəmələrinə daxil olmuş işlərin sayı – 33 iş (3,3 %), ümumi məhkəmələrdən göndərilmiş işlər üzrə kommersiya məhkəmələri tərəfindən fikir ayrılığı səbəbindən Ali Məhkəməyə göndərilmiş işlərin sayı – 9 iş (0,9 %)

# 3.4. ŞİRVAN KOMMERSİYA MƏHKƏMƏSİ

2020-ci il üzrə Şirvan Kommersiya Məhkəməsinin icraatında cəmi 1630 sayda iş olmuşdur.Onlardan 236 iş 2019-cu ildən qalıq keçmiş, 1394 iş isə 2020-ci ilin 01 yanvar-31 dekabr tarixlərində daxil olmuşdur. 2019-cu il ərzində Şirvan İnzibati-İqtisadi Məhkəməsinin icraatına daxil olan iqtisadi işlərin cəmi 932 sayda olmuşdur. Şirvan Kommersiya Məhkəməsində 2020-ci il üzrə ümumən icraatda olan iş sayı artmış, 1630 sayda olmuşdur. Bu isə öz növbəsində 2019-cü il üzrə müqayisədə 74.89% artım deməkdir. 2019-cu il üzrə Şirvan İnzibati-İqtisadi Məhkəməsinin icraatına daxil olan iqtisadi işlər üzrə qalıq keçən işlərin sayı 59, daxil olan işlərin sayı isə 873 olmuşdur. 2020-ci ildə 2019-cu il ilə müqayisədə qalıq keçən və daxil olan işlərin sayı artmış, artım faizi qalıq işlərə nisbətdə 300%, daxil olan işlərə nisbətdə isə 59.68% olmuşdur.




2020-ci ildə icraatda olmuş ümumi işlərin 1414-nə mahiyyəti üzrə baxılmış, 216 iş qalıq olaraq növbəti ilə keçmişdir. 204 iddia ərizəsi geri qaytarılmışdır.



Baxılmış 1102 iş üzrə qətnamə çıxarılmış, onlardan 939-ü təmin, 117-i qismən təmin və 46-ı rədd edilmişdir. 74 iş üzrə iddia baxılmamış saxlanılmış, 2 iş üzrə icraata xitam verilmiş və 2 sayda iş barışıq sazişi ilə yekunlaşmışdır.



## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Torpaq münasibətlərindən irəli gələn mübahisələr | **2** | **0,18%** |
| Mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | **3** | **0,27%** |
| Alqı-satqı müqaviləsi | **59** | **5,35%** |
| İcarə müqaviləsi | **23** | **2,09%** |
| Borc (kredit) müqaviləsi | **120** | **10,89%** |
| Sığorta müqaviləsi | **2** | **0,18%** |
| Kirayə müqaviləsi | **2** | **0,18%** |
| Lizinq müqaviləsi | **10** | **0,90%** |
| Podrat müqaviləsi | **3** | **0,27%** |
| Tapşırıq müqaviləsi | **7** | **0,64%** |
| Sığorta müqaviləsi | **2** | **0,18%** |
| Digər müqavilələr | **266** | **21,14%** |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr üzrə | **569** | **51,63%** |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması ilə bağlı mübahisələr üzrə | **223** | **20,24%** |
| Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi | **5** | **0,45%** |
| Müqavilənin etibarsızlığından irəli gələn mübahisələr üzrə | **1** | **0,09%** |
| Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə bağlı mübahisələr | **1** | **0,09%** |
| Müflisləşmə ilə bağlı mübahisələr üzrə | **1** | **0,09%** |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr üzrə | **5** | **0,45%** |

## 2020-ci ildə daxil olmuş işlərin subyekt tərkibi üzrə bölgüsü

2020-ci ildə baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsünə dair məlumatlar məhkəmə tərəfindən təqdim edilməmişdir.

Baxılmış işlər üzrə 88-i qətnamə, 19-u qərardad olmaqla, cəmi 107 iş üzrə apelyasiya şikayəti verilmişdir. Qətnamələrdən verilmiş apelyasiya şikayəti üzrə 27, qərardadlardan verilən şikayətlər üzrə 9 iş qüvvədə saxlanmışdır. Qətnamələrdən verilmiş apelyasiya şikayəti üzrə 59 iş, qərardadlardan verilən şikayətlər üzrə 5 iş hal-hazırda apelyasiya məhkəməsinin icraatındadır və yekun nəticə verilməmişdir. Verilmiş apelyasiya şikayətləri üzrə cəmi 6 iş ləğv edilmiş, onlardan 5-i qərardad, 1-i qətnamə olmuşdur. Həmin ləğv olunan qətnamə üzrə yeni qətnamə çıxarılmışdır. Qətnamələrdən verilmiş apelyasiya şikayəti üzrə 27, qərardadlardan verilən şikayətlər üzrə 9 iş dəyişdirilmədən saxlanmışdır. 1 iş üzrə qətnamə dəyişdirilmiş, 5 iş üzrə qərardad ləğv edilərək baxılması üçün Şirvan Kommersiya Məhkəməsinə göndərilmişdir. İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq heç bir apelyasiya şikayəti verilməmişdir.




2019-cu il ilin müvafiq dövrü ilə müqayisədə məhkəmə aktlarının ləğv statistikasında azalma olmuş, belə ki, 2019-cu il üzrə 9 sayda məhkəmə aktı ləğv edilmiş, 2020-ci ildə isə bu göstərici 6 olmuşdur. Bu isə üz növbəsində 33.3 % azalma deməkdir. (Qətnamələrdən verilmiş apelyasiya şikayəti üzrə 59 sayda iş, qərardadlardan verilən şikayətlər üzrə 5 sayda iş hal-

hazırda apelyasiya məhkəməsinin icraatındadır və yekun nəticə verilməməsinin nəzərə alınması).

2020-ci il üzrə Şirvan Kommersiya Məhkəməsindən ümumi məhkəmələrə məhkəmə aidiyyəti üzrə 15 sayda iş göndərilmişdir, ümumi məhkəmələrdən Şirvan Kommersiya Məhkəməsinə daxil olan işlərdən 14 sayda işdə fikir ayrılğı yarandığı üçün aidiyyət məsələsinin baxılması üçün Ali Məhkəməyə göndərilmişdir. Ümumi məhkəmələrdən daxil olan işlərin sayı 14-dən çox olmuş, lakin elektron sistemlə əlaqədar olaraq dəqiq müəyyən etmək mümkün olmamışdır.

# 3.5. ŞƏKİ KOMMERSİYA MƏHKƏMƏSİ

2020-ci il üzrə məhkəmənin icraatında cəmi 686 iş olmuş, onlardan 48 iş 2019-cu ildən qalıq keçmiş, qalan 638 iş 2020-ci ildə daxil olmuşdur. 2019-cu illə müqayisədə iş sayında 252 iş artım olmuşdur.




2020-ci ildə 686 işdən 626 işə baxılaraq yekunlaşmış, 60 iş dövrün sonuna qalıq olaraq 2021-ci ilə keçmişdir. 2020-ci ildə daxil olan iddialardan 115-i geri qaytarılmış (əmr icraatı qaydasında baxılan işlər də daxil olmaqla), 1-i iddianın yolverilməzliyə görə qəbulundan imtina edilmişdir.



2020-ci ildə mahiyyəti üzrə baxılmış 440 iş üzrə qətnamə qəbul edilmişdir. Onlardan 338-i təmin edilmiş, 93-ü qismən təmin edilmiş, 9-u rədd edilmişdir. 8 iş üzrə icraata xitam verilmiş, 35 iddia baxılmamış saxlanılmış, 7 iş məhkəmə aidiyyəti üzrə göndərilmişdir.



## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİANIN KATEQORİYASI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Əmlak tələbi | 1 | 0,16 % |
| Torpaq sahəsinin boşaldılması | 1 | 0,16 % |
| Müqavilənin bağlanması | 1 | 0,16 % |
| Müqavilənin ləğv edilməsi | 3 | 0,49 % |
| Alqı-satqı müqaviləsi üzrə | 45 | 7,19 % |
| İcarə müqaviləsi | 10 | 1,59 % |
| Borc müqaviləsi | 1 | 0,16 % |
| Kredit müqaviləsi | 121 | 19,33 % |
| Lizinq müqaviləsi | 56 | 8,95 % |
| Daşıma müqaviləsi | 1 | 0,16 % |
| Podrat müqaviləsi | 2 | 0,32 % |
| İstehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi üzrə | 27 | 4,31 % |
| Vergi ödəmələri barədə mübahisələr | 72 | 11,50 % |
| Deliktlərdən əmələ gələn öhdəliklər üzrə | 1 | 0,16 % |
| Əmr icraatı | 13 | 2,08 % |
| Qanunsuz tikilinin sökülməsi üzrə | 1 | 0,16 % |
| Müflisləşmə (iflas) | 1 | 0,16 % |
| Maliyyə sanksiyaları, cərimələr və s. tutmalar üzrə | 8 | 1,28 % |
| Maddi ziyanın ödənilməsi | 9 | 1,44 % |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında | 167 | 26,68 % |
| Digər mübahisələr | 124 | 19,81 % |
| Məhkəmə qərarlarının icrası qaydasında | 21 | 3,35 % |

## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN SUBYEKT TƏRKİBİ ÜZRƏ BÖLGÜSÜ

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | 363 |
| Kommersiya hüquqi şəxs | 326 |
| Qeyri-kommersiya hüquqi şəxs (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 7 |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | 1 |
| Publik hüquqi şəxs | 1 |
| Hüquqi şəxsin ləğvedicisi | 39 |
| Dövlət orqanı | 232 |
| Digər | 149 |

Baxılmış işlər üzrə ümumilikdə 21 qətnamədən və 20 qərardaddan apellyasiya şikayəti verilmişdir. Apellyasiya qaydasında 12 qətnamə, 16 qərardad qüvvədə saxlanılmışdır. Apellyasiya qaydasında baxılmış işlər üzrə 1 qətnamə ləğv edilmiş, 8 iş dövrün sonuna qalıq olaraq 2021-ci ilə keçmiş, 2 qərardad ləğv edilmiş, 2 iş dövrün sonuna qalıq olaraq 2021-ci ilə keçmişdir. Şəki Apellyasiya Məhkəməsinin məlumatına əsasən 2019-cu illə müqayisədə məhkəmə aktlarının ləğv statistikasında 39,77 % azalma baş vermişdir.



## 3.6. NAXÇIVAN MUXTAR RESPUBLİKASI KOMMERSİYA MƏHKƏMƏSİ

2020-ci ildə Naxçıvan MR Kommersiya Məhkəməsinin icraatında cəmi 80 iş olmuşdur. Onlardan 7 iş 2019-cu ildən qalıq keçmiş, 73 iş isə 2020-ci ilin 01 yanvar – 30 dekabr ayları ərzində daxil olmuşdur. 2019-cu illə müqayisədə ümumən icraatda olan iş sayında 12,6%-lik artma olmuşdur. Belə ki, 2019-cu il ərzində Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatında iqtisadi mübahisələrə dair iş sayı ümumilikdə 71 iş olmuş, onlardan 3 il 2018-ci ildən qalıq keçmiş, 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraicraatda olan iş sayı 9 iş artmışdır.




2020-ci il ərzində icraatda olmuş ümumi işlərin 74 kommersiya mübahisəsinə dair işə mahiyyəti üzrə baxılmış, 6 kommersiya mübahisəsinə dair iş isə qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizələrindən 55-i geri qaytarılmışdır.

Beləliklə, ötən illə müqayisədə ayrıca götürülməklə qalıq keçən işlərin sayında azalma, daxil olan işlərin sayında isə artma baş vermişdir. Belə ki, 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsindən 7 iqtisadi mübahisəyə dair iş 2019-cu ildən qalıq keçmiş, 2021-ci ildə isə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 6 kommersiya mübahisəsinə dair iş 2020-ci ildən qalıq keçmişdir. 2019-cu il ərzində Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına 68 iqtisadi mübahisəyə dair iş daxil olmuş, 2020-ci il ərzində isə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 73 kommersiya mübahisəsinə dair iş daxil olmuşdur.




2020-ci ildə baxılmış işlər üzrə yekunlaşma aşağıdakı kimi olmuşdur: 15 işə baxılaraq mahiyyəti üzrə qətnamə çıxarılmışdır; 13 iş üzrə iddia təmin edilmiş, 1 iş üzrə iddia qismən təmin edilmiş, 1 iş üzrə iddia rədd edilmişdir. 2 iş üzrə icraata xitam verilmişdir.1 iş üzrə iddia baxılmamış saxlanmışdır. 1 iş isə məhkəmə aidiyyəti üzrə göndərilmişdir.



## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | **2** | **2,5%** |
| Müqavilənin etibarsızlığı üzrə | **1** | **1,25%** |
| Alqı-satqı müqaviləsi | **4** | **5%** |
| Borc müqaviləsi | **3** | **3,75%** |
| Kredit müqaviləsi | **8** | **10%** |
| Sığorta müqaviləsi | **2** | **2,5%** |
| Digər müqavilələr | **3** | **3,75%** |
| Vergi ödəyicisı olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | **51** | **63,75%** |
| Digər kateqoriyalar | **6** | **7,5%** |

## 2020-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN SUBYEKT TƏRKİBİ ÜZRƏ BÖLGÜSÜ

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | **7** |
| Kommersiya hüquqi şəxs | **6** |
| Dövlət orqanı | **54** |
| Fərdi sahibkarlar və kommersiya hüquqi şəxsləri arasında yaranan mübahisələr üzrə | **13** |

2020-ci il ərzində baxılmış işlərdən ümumilikdə 7 kommersiya mübahisəsinə dair iş üzrə (3 iş üzrə çıxarılmış qətnamədən, 4 iş üzrə çıxarılmış qərardaddan; borc müqaviləsi üzrə - 1 iş, vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr üzrə - 1 iş, kredit müqaviləsi üzrə 1 iş, alğı-satqı müqaviləsi üzrə - 1 iş, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr üzrə - 1 iş, digər müqavilələr üzrə - 1 iş) apellyasiya şikayəti verilmişdir. Apellyasiya qaydasında 5 işə baxılmış, məhkəmə aktları (2 iş üzrə çıxarılmış qətnamə, 3 iş üzrə çıxarılmış qərardad) qüvvədə saxlanılmışdır. Apelyasiya şikayəti verilmiş 2 iş üzrə isə apellyasiya icraatı davam edir.

Apellyasiaya qaydasında baxılmış kommersiya mübahisələrinə dair işlərdən heç biri ləğv edilməmişdir. İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-nin 357.2-ci maddəsinə müvafiq olaraq apellyasiya şikayəti verilməmişdir.




Məhkəmə aidiyyəti ilə bağlı 1 iş isə ümumi məhkəməyə göndərilmiş, ümumi məhkəmələrdən 1 iş daxil olmuş, həmin daxil olmuş 1 işin aidiyyət məsələsi üzrə fikir ayrılığı yaranmamışdır.

# ƏLAVƏLƏR

**Azərbaycan Respublikası adından**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Kommersiya Kollegiyası**

**İddiaçı ___________cavabdeh __________qarşı iş üzrə**

**Q Ə R A R**

**iş № 2-2(102)-____/2020**

**Bakı şəhəri**

**2020-ci il_________**

*Açar sözlər: (_______________)*

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası, hakimlər_________ (sədrlik edən və məruzəçi), ____________və____________ ibarət tərkibdə,

məhkəmə iclasının katibi____________,

iddiaçı ___________in nümayəndəsi _______
onun vəkili

cavabdeh ________nun nümayəndəsi ______
onun vəkili ________
iştirakları ilə,

cavabdeh _____________ tərəfindən ___ Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2020-ci il _____ tarixli 2-2(10_)-____/2020 saylı qətnaməsindən verilmiş kassasiya şikayətinə açıq məhkəmə iclasında baxılmışdır.

## I. İŞİN HALLARI

### A. İşin faktiki halları

1. ______________ 2011-ci il ____ tarixli ___ saylı sərəncamı ilə ____________ rayonu ________ kənd sakini ____________ davar saxlamaq üçün ___ nömrəli qışlağın ərazisindən 188 hektar qış otlaq sahəsi qısa müddətli istifadə etmək məqsədilə 15 il müddətinə icarəyə verilmiş, _________ icarəyə veriləcək qış otlaq sahəsinə dair 2011-ci il ____tarixli yerin seçilmə aktı və yerquruluşu planı, onunla bağlanmış torpaq icarə müqaviləsi təsdiq edilmiş, __ saylı Ərazi Vergilər İdarəsinə ________ vergi ödəyicisi kimi qeydiyyata alınmasının təmin edilməsi tapşırılmış, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ____________ rayon şöbəsinə icarəyə verilmiş qış otlaq sahəsinin istifadəsi üçün texniki sənədlərin hazırlanıb verilməsinin təmin edilməsi tapşırılmış, Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti Başçısının aqrar məsələlər şöbəsinə tapşırılmışdır.

2. Qeyd edilən sərəncam əsasında __________ (bundan sonra – “iddiaçı”) ilə _____________ (bundan sonra – “cavabdeh”) arasında bağlanmış 2011-ci il _____ tarixli ____ saylı müqaviləyə müvafiq olaraq, icarəyəverən 188 hektar torpaq sahəsini davar saxlamaq üçün 15 il müddətinə icarəyə verilmişdir.

3. Torpaq icarəsi müqaviləsinin 1.3-cü bəndinə görə, torpaq sahəsi davar saxlamaq üçün verilir və göstərilmiş məqsəd üçün sahənin istifadə olunması qətidir. Müqavilənin 2.13-cü bəndinə əsasən, icarəyə götürülmüş torpaqdan təyinatı üzrə istifadə etmək, icarə müqaviləsinin şərtlərinə və torpaq qanunvericiliyinin tələblərinə riayət etmək, torpaq sahəsindən istifadəyə görə icarə haqqını və digər tədiyyələri vaxtında ödəmək icarəçinin vəzifələridir.

4. İddiaçının tərtib etdiyi 2016-cı il ______ və 2016-cı il ______ tarixli aktlarda qeyd olunmuşdur ki, cavabdehin icarəsində olan torpaq sahəsinə yerində baxış zamanı, torpaq sahəsindən səmərəli istifadə edilməməsi müəyyən olunmuşdur.

5. İddiaçının tərtib etdiyi 2017-ci il _____ tarixli aktda qeyd olunmuşdur ki, cavabdehin icarəsində olan qış otlaq sahəsinə yerində təkrar baxış zamanı otlaq sahəsində 500 baş davar və 60 baş iri buynuzlu mal-qaranın saxlanılması müəyyən edilmişdir.

6. Cavabdehə ünvanlanmış 2017-ci il ______ tarixli ____ nömrəli xəbərdarlıqda qeyd olunmuşdur ki, icarəyə verilmiş torpaq sahəsində normadan az davar və normadan çox iri buynuzlu heyvan saxlamaqla torpaqdan səmərəli istifadə edilmir, bununla bağlanmış torpaq icarə müqaviləsinin şərtləri pozulur. Xəbərdarlıqda həmçinin bildirmişdir ki, cavabdehin icarəsində olan 188 hektar qış otlaq sahəsinin yerləşdiyi ərazilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – "Nazirlər Kabineti") qərarına əsasən təyinatı dəyişdirilərək əkin kateqoriyasına keçirilməklə aqroparkların yaradılması üçün nəzərdə tutulmuş 17 min hektar torpaq sahəsi ölçüləri daxilindədir. Bununla da, cavabdehdən 15 gün müddətinə pozulmuş müqavilə şərtləri və icarəsində olan torpağın kateqoriyasının dəyişdirilməsi ilə bağlı fikirlərin iddiaçıya bildirilməsi xahiş edilmişdir.

7. İddiaçının cavabdehə ünvanlandığı 2018-ci il ____ tarixli ____ saylı məktubda qeyd olunmuşdur ki, Nazirlər Kabinetinin 2017-ci il 16 fevral tarixli 116s nömrəli və 2017-ci il 2 oktyabr tarixli 661s nömrəli sərəncamlarına (bundan sonra – müvafiq olaraq "116s nömrəli sərəncam" və "661s nömrəli sərəncam") əsasən, cavabdehin icarəsində olan 188 hektar qış otlaq sahələrinin yerləşdiyi ərazi ____________ İnzibati Ərazi Vahidində əkin dövriyyəsinə cəlb edilməsi məqsədilə kateqoriyası dəyişdirilərək kənd təsərrüfatı təyinatlı torpaqları kateqoriyasına keçirilməsi nəzərdə tutulmuş 17 min hektar torpaq sahələri ölçüləri daxilindədir.

8. 116s nömrəli Sərəncama əsasən, aqropark yaradılmaqla taxılçılıq, pambıqçılıq və digər bitkiçilik sahələrinin inkişafı məqsədi ilə ____________ rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahəsindən 5000 hektar torpaq sahəsi (o cümlədən, 14h nömrəlidən 81 hektar, 15 nömrəlidən 2495 hektar, 16h nömrəlidən 128 hektar, 21h nömrəlidən 1156 hektar, 22 nömrəlidən 340 hektar və 25 nömrəlidən 800 hektar) əkin dövriyyəsinə cəlb edilməsi ilə əlaqədar kateqoriyası dəyişdirilərək dövlət ehtiyat fondu torpaqları kateqoriyasına və əkin sahələrinin genişləndirilməsi məqsədilə kənd təsərrüfatlı təyinatlı torpaqlar kateqoriyasına keçirilmişdir.

9. 661s nömrəli Sərəncama əsasən, kənd təsərrüfatı məhsulları istehsalının dəstəklənməsi və ixrac potensialının artırılması ilə əlaqədar mütərəqqi irriqasiya sistemləri və suvarma şəbəkəsi yaradılmaqla, qabaqcıl aqrotexniki tədbirlər həyata keçirilməklə, pambıq, taxıl və digər bitkiçilik sahələrinin genişləndirilməsi məqsədi ilə təqdim edilmiş yerquruluşu planına əsasən, ____________ rayonunun inzibati ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqlarında 3542,08 hektar sahənin əkin dövriyyəsinə cəlb edilməsi məqsədilə kateqoriyası dəyişdirilərək kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına keçirilmişdir.

**B. İş üzrə qəbul edilmiş məhkəmə aktları**

**a) Birinci instansiya məhkəməsindəki icraat**

10. 2018-ci il tarixdə iddiaçı _____ İnzibati-İqtisadi Məhkəməsində iddia ərizəsi ilə müraciət edərək, ____ Rayon İcra Hakimiyyəti Başçısının 2011-ci il ____ tarixli __saylı sərəncamı ilə dövlət fond torpaqlarından icarəyə verilmiş 188 hektar qış otlaq sahəsi üzərində

icarə hüququna xitam verilməsi və 2011-ci il ___ tarixli _____ torpaq sahəsinin icarəyə verilməsi haqqında bağlanmış torpaq icarə müqaviləsinin ləğv edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

11. İddia tələbi onunla əsaslandırılmışdır ki, cavabdeh torpaq icarə müqaviləsinin 1.3-cü maddəsinin və 2.13-cü maddəsinin birinci və ikinci abzasının tələblərini pozaraq icarə müqaviləsi ilə üzərinə götürdüyü vəzifələri yerinə yetirməmiş, bu günə kimi o, pozulmuş müqavilə şərtlərini bərpa etməmişdir (bax yuxarıda §§ 3-5).

12. İddiada, həmçinin 116s nömrəli və 661s nömrəli sərəncamlara istinad edilmişdir (bax yuxarıda §§ 8-9).

13. ______ İnzibati-İqtisadi Məhkəməsinin 2018-ci il ______ tarixli 2-2(___)-___/2018 saylı qətnaməsi ilə iddia tələbi təmin edilərək, cavabdehin ______ Rayon İcra Hakimiyyəti Başçısının 2011-ci il _______ tarixli ___ saylı sərəncamı ilə dövlət fondu torpaqlarından icarəyə verilmiş 188 hektar torpaq sahəsi üzərində icarə hüququna xitam verilməsi və 2011-ci il _____ tarixli ____ torpaq sahəsinin icarəyə verilməsi haqqında bağlanmış torpaq icarəsi müqaviləsinin ləğv edilməsi qət edilmişdir (hakim - ___________).

14. Məhkəmə müəyyən etmişdir ki, cavabdeh onun icarəsinə verilmiş qış otlaq sahəsindən səmərəli istifadə etməmiş, yəni normadan az davar və xeyli sayda iri buynuzlu mal-qara saxlamışdır. Həmçinin, cavabdeh torpaq sahəsindən səmərəli istifadə etmədiyinə görə iddiaçının xəbərdarlıqlarına cavab verməmiş, pozduğu müqavilə şərtlərini bərpa etməmişdir.

15. Məhkəmə, eyni zamanda iddiaçı tərəfindən cavabdehin icarəsinə verilmiş qış otlaq sahəsinin hazırda təyinatı dəyişdirilərək əkin kateqoriyalı torpaqlar sahəsinə daxil edilməsini qeyd etmişdir.

16. Məhkəmə öz qətnaməsini Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – “Mülki Məcəllə”) 421, 423, 713-cü, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (bundan sonra – “Torpaq Məcəlləsi”) 16, 73, 75-ci, “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – “Torpaq icarəsi haqqında qanun”) 15, 23-cü maddələrinə istinad etməklə əsaslandırmışdır.

**b) Apellyasiya instansiyası məhkəməsindəki birinci icraat**

17. 2018-ci il _____tarixdə cavabdeh həmin qətnamədən apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

18. _______ Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il ______ tarixli 2-2(10_)-___/2019 saylı qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, _____ İnzibati-İqtisadi Məhkəməsinin 2018-ci il ____ tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (sədrlik edən ________, hakimlər________və __________).

19. Apellyasiya instansiyası məhkəməsi öz qətnaməsini birinci instansiya məhkəməsinin istinad etdiyi qanunvericilik aktlarına (bax yuxarıda § 16) əsaslandırmış, onun gəldiyi nəticələrlə razılaşmışdır.

**c) Kassasiya instansiyası məhkəməsindəki birinci icraat**

20. 2019-cu il _____tarixdə cavabdeh həmin qətnamədən kassasiya şikayəti vermiş, qətnamənin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

21. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il ______ tarixli 2-2(102)-____/2019 saylı qərarı ilə kassasiya şikayəti təmin edilmiş, ______ Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il _______ tarixli qətnaməsi ləğv edilmiş, iş yenidən baxılması üçün _______ Apellyasiya Məhkəməsinə göndərilmişdir (sədrlik edən ________, hakimlər________və __________).

22. Məhkəmənin mövqeyi ondan ibarət olmuşdur ki, iddiaçı cavabdehin qeyd olunan müqavilə üzrə vəzifələrini icra etmədiyini, yəni torpaqdan təyinatı üzrə istifadə etmədiyini və normadan az davar saxladığını qeyd etsə də, tərəflər arasında olan müqavilədə həmin torpaq sahəsində norma olaraq nə qədər davar saxlanılmalı olmasına dair müddəa nəzərdə tutulmamışdır. İddiaçı da bu barədə hər hansı normativ sənədə istinad etmədən cavabdehin normadan az davar saxlamaqla müqavilə şərtlərini pozması qənaətinə gəlmişdir.

23. İşə baxan aşağı instansiya məhkəmələri də iddiaçının bu barədə olan dəlilləri ilə razılaşmış, cavabdehin müqavilə şərtlərini pozmaqla ayrılmış torpaq sahəsindən səmərəli istifadə etmədiyini hesab etmişlər.

24. Bundan əlavə, 116s nömrəli sərəncamda cavabdehin torpaq sahəsi nəzərdə tutulmamışdır (bax yuxarıda § 8). Belə ki, cavabdehə məxsus 188 hektar qış otlaq sahəsi 43 nömrəli qışlaqların ərazisindən verilmişdir.

25. Həmçinin, 661s nömrəli sərəncamı ilə _______ rayonunun inzibati ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqlarından 3542,08 ha sahənin əkin dövriyyəsinə cəlb edilməsi məqsədi ilə kateqoriyasının dəyişdirilərək, kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına keçirilməsi barədə _______ rayon İcra Hakimiyyətinin vəsatəti qəbul edilmişdir. Sözügedən sərəncamda ehtiyat fondu torpaqlarından bəhs olunmuş, cavabdehə məxsus sahə isə qış otlaq sahəsidir və 116s nömrəli sərəncamda cavabdehə məxsus torpaq sahəsi qeyd edilmədiyindən cavabdehin torpaq sahəsinin kateqoriyası dəyişdirilərək dövlət fondu torpaqlarına aid edilməmişdir.

26. Eyni zamanda, iddiaçı Mülki Məcəllənin 423.2-ci maddəsində nəzərdə tutulan qaydada cavabdehə müqaviləni ləğv etmək təklifinin göndərilməsinə, cavabdehin həmin təklifdən imtinasını almasına dair və ya təklifdə göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə otuz gün müddətində ondan cavab almamasına dair sübutu məhkəməyə təqdim etməmişdir (səhifə 142-143).

27. Məhkəmə öz qərarını Mülki Məcəllənin 423.2-ci, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – "Mülki Prosessual Məcəllə") 8.1, 9.1 və 88-ci maddələrinə istinad etməklə əsaslandırmışdır.

**d) Apellyasiya instansiyası məhkəməsindəki ikinci icraat**

28. ____________ Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2020-ci il ________ tarixli 2-2(10_)-__/2020 saylı qətnaməsi ilə cavabdehin apellyasiya şikayəti təmin

edilməmiş, ____________ İnzibati-İqtisadi Məhkəməsinin 2018-ci il _________ tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır (hakim – ________).

29. Apellyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, tərəflər arasında olan müqavilədə həmin torpaq sahəsində norma olaraq nə qədər davar saxlanılmalı olmasına dair müddəa nəzərdə tutulmasa da, Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş “Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi Qaydalarının” üçüncü hissəsinin 13-cü bəndinə uyğun hesablama aparılaraq həmin normanın 660-750 baş nəzərdə tutulduğu qeyd olunmuşdur.

30. Cavabdeh apellyasiya şikayətində hazırda 800 baş davarının olmasını qeyd etsə də, həmin halı təsdiq edən hər hansı sübutu iş materiallarına əlavə etməmiş, əksinə, apellyasiya məhkəməsinin iclasında hazırda 400 baş davar və 30 baş iri buynuzlu mal-qarasının olmasını göstərmişdir. Bununla da, torpaq sahəsində normadan az davar saxlanılması və icazəsiz iri buynuzlu mal saxlanılması sübuta yetirilmişdir.

31. Bundan başqa, tərəflər arasında olan icarə hüququnun qeydiyyatı qanunvericiliklə nəzərdə tutulmuş qaydada daşınmaz əmlakın dövlət reyestrində aparılmamışdır. Tərəflər arasında olan icarə hüququnun qeydiyyatı qanunvericiliklə nəzərdə tutulmuş qaydada daşınmaz əmlakın dövlət reyestrində aparılmadığından, həmin hüququn məhkəmə müdafiəsinə də təminat verilə bilməz.

32. 116s nömrəli sərəncamın cavabdehin icarəsində olan torpaq sahəsinə şamil edilmədiyi 2019-cu il ____ tarixli ____ saylı ekspert rəyi ilə təsdiq olunur. Rəyə görə, 116s nömrəli sərəncamı ilə ____________ rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 14h, 15, 16, 21h, 22 və 25 nömrəli otlaq sahələrinin, ümumilikdə 5.000 hektar ərazisi, naturada ____________ Rayon İcra Hakimiyyəti Başçısının 2011-ci il 25 aprel tarixli sərəncamı ilə davar saxlamaq üçün 43 №-li qışlağın ərazisindən cavabdehə icarəyə verilmiş 188 hektar qış otlaq sahəsi ilə üst-üstə düşmür.

33. Belə ki, Nazirlər Kabinetinin qərarı ilə əkin dövriyyəsinə cəlb olunan 14h, 15, 16, 21h, 22 və 25 nömrəli otlaq sahələri ____________ rayonunun şimal-qərb hissəsində yerləşir. Cavabdehə icarəyə verilmiş 188 hektar qış otlaq sahəsi ilə 116s və 661s nömrəli sərəncamlara əsasən təyinatı dəyişdirilmiş ümumilikdə 17.000 hektar torpaq sahəsi ilə üst-üstə düşmür.

34. Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətindən alınan şifahi məlumata və aparılan araşdırmalara əsasən məlum olmuşdur ki, ____________ rayonunun elektron baza xəritəsi ilə naturadakı ölçüləri arasında 1200-1500 metr sürüşmə xətası mövcuddur. Naturada cavabdehə icarəyə verilmiş 188 hektar qış otlaq sahəsi Sərəncam üzrə təyinatı dəyişdirilmiş torpaq sahələrinin sərhədləri arasındakı məsafə bəzi hissələrdə 500 metr, bəzi hissələrdə 700 metr təşkil edir.

